DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 06 (335) / İYUN 2019-CU İL

# PREZİDENT İLHAM ƏLİYEV CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYDƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB



İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri Zakir Həsənov burada aparılmış yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verib.

Bildirilib ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidənqurma işləri 2018-ci ilin fevral ayında başlanıb. Hərbi Liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilib. Hərbi Liseydə sahəsi 1800 kvadratmetr olan üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.

Liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıb. Buradakı şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.

Hərbi Liseydə yaradılan qapalı idman kompleksində kursantların idmanla məşğul olmaları üçün hərtərəfli imkanlar var. Kompleksdə trenajor, gimnastika zalları, mini futbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança yaradılıb.

Sonra dövlətimizin başçısı Hərbi Liseydəki Heydər Əliyev Muzeyi ilə tanış oldu. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi Liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edilib. Muzeydə Ulu Öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda nizami ordu quruculuğu, Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması, o cümlədən Hərbi Liseyin inkişafına göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolar, sənədlər və nəşrlər nümayiş olunur.

Dövlətimizin başçısı Hərbi Liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan dördmərtəbəli yataqxana korpusu ilə də tanış oldu. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.

Sonra Prezident İlham Əliyev Hərbi Liseyin klubunda yaradılan şəraitlə tanış oldu. Liseydə aparılan yenidənqurma və təmir işləri çərçivəsində klubun binası da əsaslı təmir edilib. Klubun 350 yerlik binasında mədəni-maarif tədbirlərinin keçirilməsi üçün bütün şərait var. Burada, eyni zamanda, ölkəmizin və liseyin həyatında baş verən əlamətdar hadisələri qeyd etmək mümkündür.

Daha sonra dövlətimizin başçısı kursant yeməkxanasında yaradılan şəraitlə maraqlandı. İkimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Bütün avadanlıqla təchiz edilmiş binada eyni vaxtda 600 kursant nahar edə bilər. Burada yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq və soyuducu anbarlar var. Dövlətimizin başçısının qayğısı sayəsində bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinə də xüsusi diqqət yetirilir.

Hərbi Liseyin tədris korpusunda yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, dördmərtəbəli bina da əsaslı təmir edilib. Burada tədris prosesi Azərbaycan dili, ictimaiyyət, riyaziyyat, informatika, xarici dil və təbiət fənn bölmələri üzrə həyata keçirilir. Korpusda fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb.

Yenidənqurma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi üç min kvadratmetr olan sıra meydanı da salınıb və tribuna inşa edilib.

davamı səh. 2

## SƏMƏRƏLİ HÜCUM STRATEGİYASI ÜÇÜN FUNDAMENTAL ELMİ İSTİNAD

***Akademik Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" əsəri erməni yalanlarının ifşasına xidmət edən konseptual elmi araşdırma – "yol xəritəsi"dir.***

Yeni qlobal çağırışları və geosiyasi reallıqları nəzərə alan ölkə rəhbərliyinin yürütdüyü xarici siyasətin başlıca hədəfləri sırasında milli maraq və mənafelərin qətiyyətli müdafiəsi ilə yanaşı, erməni separatizminin geniş coğrafiyada sülh, iqtisadi əməkdaşlıq və təhlükəsizlik üçün doğurduğu ciddi təhdidlərin beynəlxalq ictimaiyyətə çatdırılması da xüsusi yer tutur.

davamı səh. 6

# PREZİDENT İLHAM ƏLİYEV CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYDƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

əvvəli səh. 1

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur. Bu, göstərir ki, Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır. Dövlətimizin başçısının rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.

Prezident, Ali Baş Komandan İlham Əliyev 26 iyun – Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarını və müəllimlərini təbrik edərək deyib:

- Silahlı Qüvvələr Günü münasibətilə Sizi təbrik edir, hər birinizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz gözəl hərbçi kimi özünüzü göstərəsiniz.

Bilirsiniz ki, bu məktəbin təməlini Ulu Öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbçi kadrlar lazım olacaq və belə də oldu.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir.

Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.

Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.

Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq.

Sizə - burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz.

Sizi bir daha təbrik edirəm.

Bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Dövlət başçısı İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərahini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini vermiş, böyük alimlər və mütəfəkkirlər yetişdirmişdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

**Ramazan bayramınız mübarək olsun!**

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 03 iyun 2019-cu il.

* * *

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Təbrikdə deyilir: "Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin".

# Prezident İlham Əliyev: Azərbaycan özünün tarixi ilə qürur duyur

Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlərboyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur.




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 86-cı kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2018-ci il aprelin 5-də "Qoşulmama hərəkatı"nın Bakıda keçirilmiş nazirlər konfransının açılış mərasimindəki nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin mart-may aylarını əhatə edir.

Kitabda Prezident İlham Əliyevin Ankarada Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasında çıxışının mətni, qardaş ölkəyə rəsmi səfəri çərçivəsində sənədlərin imzalanma mərasimi haqqında məlumat, Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri yer alıb.

Nəşrə dövlətimizin başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərinə, habelə Azərbaycana səfər etmiş İran İslam Respublikası Prezidenti ilə görüşünə dair informasiyalar, Azərbaycan-İran biznes-forumunda söylədiyi nitqin mətni daxil edilib.

Çoxcildliyin 86-cı kitabında Prezident İlham Əliyevin Belarus, Türkiyə, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, Rusiya və digər dövlətlərin, NATO-nun, ATƏT-in, Şanxay Əməkdaşlıq Təşkilatının, Beynəlxalq Memarlar İttifaqının, Dünya Turizm Təşkilatının Azərbaycana səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair məlumatlar toplanıb.

Kitabda, həmçinin 2018-ci ilin aprelində keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərinin yekunları, növbəti müddətə Prezident seçilmiş İlham Əliyevin andiçmə mərasimi barədə materiallar verilib.

Oxucu bu nəşrdə ölkə rəhbərinin Bərdə rayonunda pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində nitqinin mətni, Xaçmaz və Xızı rayonlarına səfərləri haqqında informasiyalarla da tanış ola bilər.

Prezident İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinə müsahibəsinin mətni, Azərbaycanın Pravoslav xristian icmasına Pasxa bayramı münasibətilə təbriki, "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda beşinci beynəlxalq elmi konfransın iştirakçılarına məktubu və digər məktubları da çoxcildliyin 86-cı kitabına daxil edilib.

Bu kitabda Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə dövlətimizin başçısının söylədiyi nitqlərin mətnləri yer alıb.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 86-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ VYANADA AVSTRİYA HÖKUMƏTİNİN VƏ PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜB

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyada səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb.

Görüşdə Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov və Səməd Seyidov, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart, Avstriya parlamentinin üzvü Qeral Hauzer, Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının rəhbərliyi iştirak ediblər.

Görüşün əvvəlində iyunun 19-da Vyanada keçiriləcək “Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə” mövzusunda beynəlxalq konfrans üçün yaradılan şəraitə görə təşəkkür edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin ideya rəhbəri olduğu tədbir barədə ətraflı məlumat verib. Qeyd edilib ki, müxtəlif dinlərin və mədəniyyətlərin dinc birgə yaşadıqları Avstriya tarixən yüksək tolerantlığın hökm sürdüyü ölkə kimi tanınıb və məhz buna görə də beynəlxalq konfransın bu ölkənin paytaxtı Vyana şəhərində keçirilməsi qərara alınıb.

Şeyxülislam Avstriya nümayəndələrini bu ilin sentyabrında keçiriləcək “Dünya dini liderlərinin II Bakı sammiti”ndə iştiraka dəvət edib.

Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhart konfransın Vyanada keçirilməsindən məmnunluğunu ifadə edərək, özünü əbədi bitərəf dövlət elan etmiş Avstriyada dinlərarası və mədəniyyətlərarası dialoqun mühüm əhəmiyyət daşıdığını bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycanı və Avstriyanı uzun illərə söykənən dostluq əlaqələri



bağlayır. Bu ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyaya səfəri bu dostluğun zirvə nöqtəsini təşkil edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Prezident İlham Əliyevin Avstriya xalqına və hökumətinin üzvlərinə ehtiram və salamlarını çatdırıb. Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan tərəfi ölkələrimiz arasında münasibətlərin daha da inkişafına dəstək verəcək və bu inkişafa maraq dövlət başçıları tərəfindən də ifadə olunub.

Cari ilin martında Prezident İlham Əliyevin Avstriyaya uğurlu səfərinin nəticəsi olaraq Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının yaradıldığını və bu qurumun artıq öz fəaliyyət istiqamətlərini müəyyən edərək işə başladığını bildirən Əli Həsənov Şuranın iki ölkə arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Vyananın Avrasiyada dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzlərindən biri olduğunu bildirən Prezidentin köməkçisi beynəlxalq konfransın keçirilməsi üçün məkan seçimində qərarın bu şəhərin xeyrinə verilməsinin təsadüfi olmadığını diqqətə çatdırıb.

Qeyd edilib ki, dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin istiqamətlərindən biridir. Azərbaycanın müstəqillik tarixinin son 25 ilində ölkə daxilində davamlı olaraq bu istiqamətdə apardığı dialoq dövlətin yürütdüyü ali siyasi kursdur. Lakin Azərbaycan bu dialoqu ölkə daxilində reallaşdırmaqla kifayətlənmir, eyni zamanda, qarşılıqlı hörmət və rəğbətə söykənən bu dəyərləri dövlətlərarası münasibətlərin əsas prinsiplərindən biri hesab edir. Dövlətlərarası müstəvidə bu, özünü müxtəlif sivilizasiyalar arasında əlaqələrin intensivləşməsində tapır. Azərbaycan dövlətinin başçısı müxtəlif xüsusiyyətlərə malik sivilizasiyalar arasında dialoq, əməkdaşlıq və tərəfdaşlığı alternativi olmayan bir istiqamət hesab edir və dünya ölkələrinin bu siyasi xəttə əməl etməsi arzuolunandır.

Vyanada keçiriləcək konfransa toxunan Əli Həsənov qeyd edib ki, tədbirdə müzakirəyə çıxarılacaq mövzular, ediləcək çağırışlar, onun təmsil etdiyi dəyərlər həm Azərbaycanın, həm Avstriyanın, həm də bütövlükdə Avropa İttifaqının kursuna tam uyğundur.

# VYANADA "DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI ƏMƏKDAŞLIQDAN BƏŞƏRİ HƏMRƏYLİYƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



İyunun 19-da Avstriyanın paytaxtı Vyana şəhərinin “Hofburq” sarayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransın təşkili Prezident İlham Əliyevin irəli sürdüyü Azərbaycanın multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında müstəsna əhəmiyyətini vurğulamaq məqsədi daşıyır. Avropanın aparıcı dövləti olan və müxtəlif mədəniyyətlərin, dinlərin təmsil olunduğu Avstriyada keçirilən beynəlxalq konfrans mühüm, qlobal əhəmiyyət kəsb edən bu mövzuya dünya ictimaiyyətinin diqqətini daha da artırmaq, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə dinlərarası ixtilaflara qarşı müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyini nümayiş etdirmək məramına xidmət edir.

Vyana konfransında Avstriya və Azərbaycanın dövlət və qeyri-hökumət təşkilatları, o cümlədən dünyanın müxtəlif dini konfessiyalarının rəhbərləri, dövlət, elm və mədəniyyət xadimləri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin Himayədarlar və Məşvərət şuralarının üzvləri iştirak ediblər. Beynəlxalq konfransda ümumilikdə dünyanın 30-dan çox ölkəsini təmsil edən dövlət, ictimaiyyət, elm və din xadimləri, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərləri, Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq qurumların nümayəndələri təmsil olunublar. Avstriya tərəfdən Federal Hökumətin və parlamentin nümayəndələri, o cümlədən Avstriya Xarici İşlər Nazirliyinin Baş katibi-nazir müavini Yohannes Peterlik, Avstriyadakı 15 dini konfessiyanın nümayəndələri iştirak ediblər.

Azərbaycan nümayəndə heyətinin tərkibinə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin baş katibi Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov, Səməd Seyidov, Eldar İbrahimov, deputatlar Cavanşir Paşazadə, Hikmət Məmmədov, Azərbaycandakı dini konfessiyaların rəhbərləri - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Bakı Dağ yəhudiləri dini icmasının başçısı Melih Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi yepiskop Vladimir Fekete və Alban-Udi xristian dini icmasının başçısı Robert Mobili daxil idi.

davamı səh. 4

# VYANADA "DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI ƏMƏKDAŞLIQDAN BƏŞƏRİ HƏMRƏYLİYƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB




əvvəli səh. 3

Konfransın açılışında Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Vyana konfransında Azərbaycanın sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafında rolundan və multikulturalizm dəyərlərindən bəhs edən "Bəşəri çağırış" filmi nümayiş olunub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını konfrans iştirakçılarına çatdırıb. Şeyxülislam qeyd edib ki, kəskin ziddiyyətlər, terror, dini və milli zəmində ekstremizm, ksenofobiya, xristianofobiya, antisemitizm və islamofobiyanın tüğyan etdiyi, dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini – multikulturalizm modelini təklif edir. Bu model Azərbaycan Prezidentinin müəllifi olduğu mədəniyyətlərarası əməkdaşlığa dair Bakı Prosesi, elan etdiyi Multikulturalizm və İslam həmrəyliyi illəri çərçivəsində ölkəmizdə və xaricdə mütəmadi keçirilən qlobal forum və tədbirlərdə təbliğ və təşviq olunur. Eyni zamanda, Azərbaycanda 2017-ci ildə dövlət başçısının tövsiyəsi ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi artıq İspaniya və Almaniyada uğurlu beynəlxalq konfranslar təşkil edib. Vyanada keçirilən konfrans da bu qəbildən növbəti nüfuzlu tədbirdir.



Şeyxülislam bildirib ki, milli və bəşəri dəyərlərə, multikultural ənənələrə hər zaman böyük önəm verən Azərbaycan bu gün dünyanın mənəvi dəyərlər mərkəzi olaraq tanınır. Multikulturalizm ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir və bu müdrik siyasətin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasəti yüksək səviyyədə davam və inkişaf etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin, milli birliyin, mənəvi vəhdətin, dini-mədəni müxtəlifliyin nadir nümunəsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında mədəni sahədə çox uğurlu fəaliyyəti, milli-mənəvi irsimizi ən yüksək səviyyədə təbliği ilə yanaşı, ümumbəşəri dəyərlərə diqqət və qayğısı Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsində mühüm rola malikdir.

Şeyxülislam A.Paşazadə çıxışında deyib ki, Azərbaycan uzun illər davam edən, regionda və dünyada sülhə təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış problemin ərazi bütövlüyümüz çərçivəsində həllini istəyir, Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əməl olunmasını tələb edir və ATƏT-in Minsk qrupunun sülhyaratma missiyasından real nəticə gözləyir.

Allahşükür Paşazadə vurğulayıb ki, bu ilin payızında dünya dini liderlərinin Bakıda keçiriləcək II Sammiti Azərbaycan dövlətinin sivilizasiyalararası dialoqun inkişafına, qlobal müstəvidə insan hüquqlarının təmini və qarşılıqlı etimad mühitinin yaradılması işinə daha bir dəyərli töhfəsi olacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, hazırda dünya miqyasında dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi dövrdə yaşayırıq. Bu səbəbdən dini dözümlülüyün, tolerantlığın hakim mövqe tutması, dinlərarası əməkdaşlıq və bəşəri həmrəylik mühüm əhəmiyyət daşıyır.

Komitə sədri deyib ki, Azərbaycan bu gün sülhsevərliyi, həmrəyliyə və birliyə verdiyi yüksək dəyəri ilə seçilir. Azərbaycan xalqı müxtəlif dini inanclıların birgəyaşayış ənənələrini zənginləşdirərək bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaradıb. Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi isə dinlə bağlı siyasətin sağlam və düzgün istiqamətdə qurulmasıdır. Ümummilli Lider Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda bu münasibətlərin beynəlxalq hüququn normaları müstəvisində tənzimlənməsi, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanması üçün hüquqi baza yaradılıb. Azərbaycanda dövlət-din münasibətləri modeli Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da təkmilləşdirilib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov müasir dünyada radikalizmin bütün növlərinə qarşı mübarizənin vacibliyini qeyd edərək, eyni zamanda, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına da diqqət göstərilməsini vacib hesab edib. O bu dialoqun inkişaf etdirilməsində konkret ideyaların müəyyənləşdirilməsini mühüm addım hesab edərək, xoş mərama söykənməli olan bu ideyaların geniş ictimaiyyət arasında təbliğinə xüsusi diqqət ayrılmalı olduğunu vurğulayıb. Bu xüsusda qeyd edilib ki, Azərbaycanın mənəvi-siyasi yüksəlişində son




dərəcə vacib məqamlardan biri 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilən bu Forumun rəsmi açılışındakı nitqində Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd edib.

KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammar rəhbərlik etdiyi qurumun Vyana konfransının həmtəşkilatçısı olmasından məmnunluq duyduğunu bildirib. O, Şeyxülislam Allahşükür Paşazadənin dinlərarası və sivilizasiyalararası əməkdaşlığın inkişafında xidmətlərini xüsusi qeyd edib. Baş katib müasir dövrdə qeyri-tolerantlıq və ksenofobiyanın dünyada radikalizm, dini və etnik icmalara, qaçqınlara, cəmiyyətin müxtəlif təbəqələrinə qarşı mənfi yanaşmalara yol açdığını bildirib və buna görə də dini rəhbərlərin münaqişələrin nizamlanması, cəmiyyətdə ekstremizm hallarının artmasına qarşı vahid strategiya və mexanizmlərin hazırlanmasında birgə fəaliyyətə çağırıb. Eyni zamanda, dinlərarası uğurlu dialoq nümunələrinin dünyada daha geniş təbliğinin vacibliyi vurğulanıb və bu cür örnəklərin cəmiyyətdə geniş yayılmalı olduğu qeyd edilib.

Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin icraçı direktoru İdris Cəzairi çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli-dini tolerantlıq və multikultural ənənələrin qorunması sahəsində qlobal əhəmiyyətli təşəbbüslərini qeyd edib və Vyana konfransını dünyanın qlobal proseslərinə Azərbaycanın özəl və dəyərli töhfəsi kimi qiymətləndirib.

Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri Əli Əbdürrəhman əl-Haşim tolerantlığı bütün insanlar arasında əmin-amanlıq yaratmağa aparan yol kimi dəyərləndirib. O, Birləşmiş Ərəb Əmirlikləri dövlətində dinlər arasında tolerantlıq üzrə nazirlik yaratdıqlarını vurğulayıb. Bildirib ki, bütün insanlar arasında tolerantlıq, əməkdaşıq və həmrəylik dəyərlərini genişləndirmək vacibdir.

Misirin dini işlər üzrə parlament komitəsinin sədri Usama əl-Abd dinlərarası əməkdaşlığın real nəticələr verdiyini və Azərbaycanın dünyada multikulturalizm ideyalarının təşviqində rolunun, töhfələrinin əhəmiyyətini vurğulayıb.

davamı səh. 5

# VYANADA "DİNLƏRARASI VƏ SİVİLİZASİYALARARASI ƏMƏKDAŞLIQDAN BƏŞƏRİ HƏMRƏYLİYƏ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



əvvəli səh. 4

BMT Baş katibinin müavini Raşid Xalikov müasir dövrdə bəşəriyyətin dinlərarası və mədəniyyətlərarası dialoqa daha güclü ehtiyac duyduğunu, sülh, dinc birgəyaşayış və ədalət kimi bəşəri dəyərlərin cəmiyyətdə daha geniş təbliğ edilməli olduğunu bildirib. Qeyd edilib ki, hazırda dünyada yardıma ehtiyacı olan insanların sayı durmadan artır, BMT və digər beynəlxalq təşkilatlar dünyanın müxtəlif regionlarında qaçqın və yoxsul əhali təbəqələrinə yardımlar edir. Bu da, öz növbəsində, tolerant və səxavətli yanaşma, yardımlaşma istəyi, dinlər və mədəniyyətlər arasında dialoqun daha da gücləndirilməsini tələb edir.




BMT Baş katibinin müavini, təşkilatın Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinos müasir dünyada sivilizasiyalararası dialoqun əhəmiyyətindən danışıb. O, Prezident İlham Əliyevin 2016-cı ili ölkədə "Multikulturalizm İli" və 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməsinin Azərbaycan dövlətinin bu sahədə nə qədər uzaqgörən siyasət yürütdüyünün və dünyada öncül mövqedə dayandığının göstəricisi olduğunu vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə çıxışında bildirib ki, dünyada onlarla din, yüzlərlə təriqət və dini dünyagörüşü var. Amma insanların yaşaya biləcəyi bir planet mövcuddur, bu da Yer kürəsidir. Milli və dini mənsubiyyətlərindən asılı olmayaraq, insanlar bu planetdə birgə yaşamağa və onu paylaşmağa məhkumdurlar. Bunun yolu isə qarşılıqlı anlaşmadan və birgə əməkdaşlıqdan keçir. Önəmli məqamlardan biri də odur ki, zaman keçdikcə dinlərarası əməkdaşlığa olan ehtiyac daha da artır. Çünki informasiya texnologiyaları əsrində yalnız hansısa bir dinin və ya xalqın mənsublarından ibarət təcrid olunmuş cəmiyyət yaratmaq mümkün deyil. Başqa sözlə, çağdaş dünyamızda dini dözümlülüyün mövcudluğu çox vacib amildir.

AMEA-nın prezidenti deyib ki, çağdaş dünya bəşəri dəyər kimi tolerantlıq prinsiplərini hamının qəbul etməsi və bütün cəmiyyətlərdə bərqərar olunması istiqamətində XXI əsrə qədər xeyli yol keçib. Ən azı ona görə ki, bu gün dünyada heç bir dövlət beynəlxalq müstəvidə qəbul olunmuş tolerantlıq prinsiplərindən rəsmi şəkildə imtina etmir. Amma təbii ki, arxa planda bu prinsiplərə əməl etməyən dövlətlər və cəmiyyətlər də var. Məsələn, Ermənistan insan hüquqları və onun tərkib hissəsi kimi tolerantlıqla bağlı konvensiyalara qoşulmasına baxmayaraq, etnik təmizləmə və işğalçılıq siyasətindən hələ də əl çəkməyib. Əksinə, dünyanın gözü qarşısında və beynəlxalq təşkilatların mövqeyinə zidd olaraq Ermənistan monoetnik dövlətə çevrilib.

Konstantinopol Patriarxlığının Ekzarxı, KAİCİİD Direktorlar Şurasının üzvü Emmanuel Adamakis çıxışında dünyanın mövcud problemlərinin həllində qarşılıqlı anlaşma və dialoqun önəmini diqqətə çatdırıb. O qeyd edib ki, dialoq dünyada əmin-amanlığa aparan alternativsiz yoldur və bu yolda müxtəlif sivilizasiyalar həmrəylik göstərməlidirlər.

Moskva və Bütün Rusiyanın Patriarxi Kirillin xüsusi nümayəndəsi Filaret dinlərarası dialoq çərçivəsində insan haqları mövzusuna xüsusi diqqət ayrılmasına çağırıb. O deyib ki, hazırda bir sıra, istər münaqişə, istərsə də qeyri-münaqişə ölkələrində insanlar qaçqına çevrilir, ayrı-seçkiliyə məruz qalır və ya normal yaşayış üçün tələb olan şərtlərlə təmin olunmur. Bu da, öz növbəsində, həmin qrup insanların haqlarını qorumaq üçün beynəlxalq həmrəyliyin gücləndirilməsini tələb edir.

Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov silahlı münaqişələr nəticəsində dünyada milyonlarla insanın öz doğma torpaqlarından didərgin düşdüyünü, Azərbaycanın da bu tale ilə üzləşdiyini qeyd edib. Münaqişələr nəticəsində maddi-mədəni, tarixi və dini abidələr məhv edilir, ən əsası isə insan talelərinə ağır zərbə vurulur. Bildirilib ki, ayrı-seçkiliyin güclənməsi dünyada qarşıdurma və münaqişələrin sayının artmasına apara bilər. Bu məsələdə mətbuatın da üzərinə məsuliyyət düşdüyünü qeyd edən R.Həsənov bir sıra mətbu orqanların jurnalistika prinsiplərinə zidd olaraq səhv xəbərlər, müxtəlif stereotiplərə söykənən saxta məlumatlar yaydığını və bu yolla problemlərin nizamlanmasına deyil, daha da qızışmasına cəhd etdiklərini, cəmiyyətdə dözümsüzlük toxumları səpdiyini diqqətə çatdırıb. Nazir müavini bildirib ki, buna görə də bəşəri həmrəyliyə nail olmaq üçün dini icmalar öz səylərini artırmalıdırlar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycan çoxmillətli və çoxdinli bir dövlətdir və dini münasibətlərini multikulturalizm siyasəti çərçivəsində nizamlayır. Bu da cəmiyyətdəki etnik, dini və mədəni fərqliliklərin nizamlanması üçün ən səmərəli siyasi modeldir. Azərbaycanda əhalinin 96 faizi müsəlmanlardan ibarət olmasına baxmayaraq, burada bütün dinlər üçün yüksək şərait yaradılıb və məbədlər fəaliyyət göstərir. Qeyd edilib ki, Azərbaycan Konstitusiyasının 18-ci maddəsində "Bütün dinlər qanun qarşısında bərabərdir" prinsipi əksini tapır və bu prinsip dövlətin dinlərlə bağlı siyasi kursunu təşkil edir. Məhz buna görə də Azərbaycanda həm müsəlman təriqətləri arasında, həm də digər dini icmalarla münasibətdə heç bir ayrı-seçkilik və qarşıdurma halına rast gəlinmir, bütün dinlərin təmsilçiləri dinc və birgə yaşayırlar.

Prezident Administrasiyasının rəsmisi Etibar Nəcəfovun və Milli Məclisin komitə sədri Səməd Seyidovun moderatorluğu ilə davam edən konfransda digər çıxış edənlər dini tolerantlığın gücləndirilməsi ilə yanaşı, dünyada yoxsulluğa qarşı mübarizə, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafı üçün yeni strategiyaların hazırlanması, gənc nəslin təhsilli yetişməsi və gələcəyə inamlı olması istiqamətində




fəaliyyətin gücləndirilməsini vacib hesab ediblər.

Konfransda "Sivilizasiyalararası və dinlərarası əməkdaşlığın bəşəri həmrəyliyə doğru inkişafı dünyada sülhün bərqərar olmasına xidmət edir", "Terrorizm, ekstremizm, separatizm və ksenofobiya dinlərarası əməkdaşlığa təhdid kimi", "Gənclərin maarifləndirilməsində, mədəni və mənəvi irsin qorunmasında sivilizasiyalararası və dinlərarası əməkdaşlığın rolu", "İnsan hüquqları sahəsində, qadın və uşaq haqlarının qorunmasında din, dövlət, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətinin vacibliyi" mövzularda çıxışlar dinlənilib, müzakirələr aparılıb.




Konfrans iştirakçıları müasir dövrdə Avstriyanın və Azərbaycanın multikulturalizm ənənələrinə, dinlərarası və sivilizasiyalararası əməkdaşlıq ideyalarına verdikləri töhfələri xüsusi vurğulayaraq, dünyada baş verən terrorizm, ekstremizm, dini radikalizm, o cümlədən ksenofobiya, antisemitizm, islamofobiya, habelə dinin siyasi məqsədlərlə istismarı təzahürlərinə qarşı dünya ictimaiyyətini, dövlət, elm və din xadimlərini birgə əməkdaşlığa çağırıblar. Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi və Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzi ilə birgə təşkil etdiyi Vyana konfransının beynəlxalq müstəvidə müsbət nümunə olduğu tədbir iştirakçıları tərəfindən qeyd edilib.

Sonda beynəlxalq konfransda yekun sənəd – Vyana Bəyannaməsi qəbul edilib. Sənəddə qeyd olunur ki, müasir dünyada humanist ideyaların təşviqi və multikultural həyat tərzinin təbliği baxımından önəm kəsb edən belə forumların davamlı keçirilməsi olduqca aktual və zəruridir.

Konfransın keçirildiyi sarayın foyesində Azərbaycandakı tolerantlığa, ölkəmizin tarixinə və mədəniyyətinə həsr olunan kitablardan ibarət guşə təqdim edilib.

# SƏMƏRƏLİ HÜCUM STRATEGİYASI ÜÇÜN FUNDAMENTAL ELMİ İSTİNAD



əvvəli səh. 1

Ötən əsrin 90-cı illərinin əvvəlində informasiya blokadasına məruz qalan, bədnam qonşularımızın təcavüzkarlıq və soyqırımı siyasətinin mahiyyətini dünyaya lazımi səviyyədə çatdıra bilməyən respublikamız bu gün səmərəli əks-hücum diplomatiyası yürüdür.

Qətiyyətlə demək olar ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ 16 il əvvəl irəli sürdüyü "Biz müdafiədə deyil, hücumda olmalıyıq!" tezisini praktik şəkildə reallaşdıraraq düşünülmüş strategiya əsasında respublikamızın təcavüzkar ölkə üzərində siyasi, hüquqi və təbliğati üstünlüyünü təmin etmişdir. Dövlət başçısı ilk gündən cəfəng və qondarma erməni təbliğatının beynəlxalq səviyyədə ifşa edilməsini, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılmasını xarici siyasət idarəsi, elm xadimləri, ictimai birlik və diaspor təşkilatları qarşısında strateji vəzifələrdən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 16 ildə türk və müsəlman dünyasının ideya birliyinin möhkəmləndirilməsi yönümündəki ardıcıl səyləri sivil dünyanı cəfəng, iftira xarakterli təbliğatının təsiri altına salmağa cəhd göstərən, qondarma "erməni soyqırımı" iddiaları ilə Türkiyə və Azərbaycana təzyiq göstərməyə çalışan bədnam erməni lobbisinə qarşı səmərəli əks-hücumun təşkilinə xidmət edir. Dövlətimizin rəhbəri hələ türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı dərin məzmunlu çıxışında bu sahədə qarşıda duran vəzifələri dəqiq ifadə etmişdir: "Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücüm etməliyik, çünki həqiqət bizim tərəfimizdədir".

Bu da reallıqdır ki, Azərbaycan yalnız dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixini obyektiv şəkildə araşdırmaq imkanı qazanmışdır. Möhtərəm Prezidentimiz bədnam erməni lobbisinin qlobal miqyasda apardığı həqiqətə uyğun olmayan və məkrli təbliğat kampaniyasının neytrallaşdırılması, təcavüzkar dövlətin beynəlxalq arenada ifşası baxımından elmi ictimaiyyətin də üzərinə mühüm vəzifələr düşdüyünü bəyan etmişdir. Təsadüfi deyildir ki, cənab İlham Əliyevin dəyərli tövsiyələri və siyasi iradəsilə son illər tarixçi alimlərimiz, tədqiqatçılarımız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir-birindən maraqlı kitablar ərsəyə gətirmiş, münaqişənin tarixi köklərini araşdırmış, bədxah qonşularımızın ərazi iddialarının istər tarixi, istərsə də beynəlxalq hüquq normaları baxımından əsassızlığını sübuta yetirmişlər.

Son illər Azərbaycanın müasir inkişaf təmayülləri, milli inkişaf modeli, modernləşmə strategiyası və cəmiyyət üçün digər aktual mövzularda fundamental tədqiqatların müəllifi kimi tanınan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin bir neçə gün əvvəl işıq üzü görmüş "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" əsəri saxta erməni yalanlarının ifşasına xidmət edən növbəti sanballı elmi araşdırma kimi diqqəti xüsusilə cəlb edir.

Dərin tarixi-politoloji araşdırmaların nəticəsi kimi qələmə alınmış əsər konkret faktlar, elmi yanaşmalar əsasında ermənilərin tarixən apardığı məkrli böhtan və iftira kampaniyasını, o cümlədən Ermənistanın avantürist baş naziri Paşinyanın cəfəng mülahizələrini alt-üst edir, milli həqiqətlərə yeni dövrün prizmasından obyektiv nəzər salır. Əsərdə ciddi elmi mənbələr əsasında ermənilərin Dağlıq Qarabağda və digər tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılmasının ayrı-ayrı mərhələləri barədə məlumat verilir, həmçinin erməni-daşnak ideoloqlarının rəhbərliyi altında azərbaycanlılara və türklərə qarşı amansızlıqla həyata keçirilən soyqırımı, terror və deportasiya siyasətindən bəhs olunur.

Xüsusi vurğulamaq lazımdır ki, sözügedən əsər görkəmli nəzəriyyəçi alimin indiyədək gərgin zəhmət, yüksək tədqiqatçı əzmi və əsl milli təəssübkeşliklə ərsəyə gətirdiyi tarixi əsərlərin məntiqi davamı olaraq sanballı, elmi-fəlsəfi, siyasi-hüquqi məzmun yükü, orijinal mənbələrə əsaslanması baxımından mühüm əhəmiyyət kəsb edir. Tariximizin yalnız müasir deyil, tarixi mərhələlərini də konseptual şəkildə araşdıraraq milli həqiqətlərə işıq salan akademik Ramiz Mehdiyev əsərlərində görkəmli şəxsiyyətlərimizlə bağlı araşdırmalara da geniş yer vermiş, bəzi ziddiyyətli, mübahisəli məqamlara aydınlıq gətirmişdir.

Bu baxımdan nüfuzlu alimin yalnız son 10 ildə qələmə aldığı "Gorus-2010: absurd teatrı mövsümü", "Şah İsmayıl Xətai ali məramlı şəxsiyyət kimi", "Tarixi idrakın elmiliyi probleminə dair", "Ermənilərin mif yaradıcılığı tarixdə ilk xristian dövləti kontekstində", "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix", "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti", "Milli ideyanın formalaşmasında tarixi idrakın faydası haqqında", "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" əsərləri təkcə tarixçi alimlərdə deyil, ümumən geniş oxucu auditoriyasında ciddi maraq doğurmuşdur. Bu marağı, eləcə də əsərlərin elmi çevrələrdə geniş diskussiyasını şərtləndirən başlıca amillərdən biri də müəllifin tarixi araşdırmalarında göstərilən faktların orijinallığı, istinad mənbələrinin və məxəzlərin mötəbərliyidir. Ədalət naminə qeyd olunmalıdır ki, Azərbaycan tarixinin qədim dövrlərdən cağdaş günlərimizədək obyektiv və siyasi konyunkturadan uzaq şəkildə araşdırılması və qələmə alınmasında, ictimaiyyətə çatdırılmasında akademik Ramiz Mehdiyevin xidmətləri müstəsnalıq təşkil edir.

Həmin tarixi araşdırmalar cəmiyyətdə milli keçmişimizə, xalqın görkəmli tarixi şəxsiyyətlərinə obyektiv münasibətin formalaşdırılması baxımından da əhəmiyyətlidir. Məsələn, akademik Ramiz Mehdiyevin 2019-cu ildə "Şərq-Qərb" nəşriyyatında nəfis tərtibatda işıq üzü görmüş "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" əsərində Azərbaycan tarixinin xanlıqlar dövrü geniş araşdırılmış, indiyədək elmi mübahisə predmeti olan problematik məsələlərə, hadisələrə, habelə tarixi şəxsiyyətlərin fəaliyyətinə yeni elmi mənbələr və arxiv sənədləri əsasında obyektiv münasibət ifadə olunmuşdur. Nəticədə müqayisəli və hərtərəfli elmi təhlil metodu əsasında tarixşünaslığımızda ilk dəfə olaraq xanlıqlar dövrünün siyasi və tarixi nöqteyi-nəzərdən konseptual dəyərləndirilməsi həyata keçirilmişdir. Sözügedən nəşr xanlıqlar dövrünün tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi anlamında mühüm yenilik kimi dəyərləndirilməlidir. Ümumiyyətlə, xanlıqlar dövrünün tarixi təhlilə cəlb edilməsi nisbətən yaxın keçmişimizlə bağlı proses və hadisələrə, tarixi şəxsiyyətlərə obyektiv qiymət vermək zərurəti ilə şərtlənir.

Bu əsərlərin davamı olaraq qələmə alınmış "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" adlı elmi əsər keyfiyyətcə yeni mərhələdə Azərbaycanın diaspor və lobbi qurumlarının, habelə diplomatik nümayəndəliklərinin, ümumən vətəndaş cəmiyyəti təsisatlarının ideoloji-təbliğati fəaliyyət prioritetlərini özündə ehtiva edir. Əsərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixi, siyasi və hüquqi aspektdə təhlilə cəlb olunmuş, ermənilərin azərbaycanlılara qarşı yeritdiyi işğalçılıq, ərazi ilhaqı və separatçılıq siyasəti beynəlxalq hüquq norma və prinsipləri kontekstində elmi təhlil süzgəcindən keçirilmişdir.

Kifayət qədər zəngin faktoloji və ensiklopedik səciyyəyə malik əsərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddialarının əsassızlığı sübuta yetirilir, ərazi bütövlüyü və millətlərin öz müqəddəratını təyinetmə prinsiplərinin mahiyyəti beynəlxalq hüquq normalarına əsasən töfsif edilir. Ciddi tarixi və hüquqi mənbələr əsasında qələmə alınmış əsərin əvvəlində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, habelə ermənilərin iki əsrdən çox müddətdə azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və ərazi ilhaqı siyasətindən söhbət açılır. Çar Rusiyasının erməniləri Türkiyə və İrandan Cənubi Qafqaza köçürdüyünü, onları himayə edərək azərbaycanlılara qarşı "alət kimi istifadə etdiyini" tarixi fakt və dəlillər əsasında diqqətə çəkən müəllif bədxah qonşularımızın müxtəlif tarixi dövrlərdə Azərbaycana qarşı ərazi iddiası ilə çıxış etdiklərini vurğulayır. Əsərdə Azərbaycan torpaqlarının şimal hissəsinin "Gülüstan" və "Türkmənçay" sülh müqavilələri əsasında çar Rusiyasının tərkibinə daxil edilməsi zamanı İran və Türkiyə ərazisindən ermənilərin məqsədyönlü və kütləvi şəkildə Qafqaza, o cümlədən Azərbaycan ərazilərinə köçürülmələri bir daha xatırladılır.

Tarixdən məlumdur ki, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər azlıq təşkil etmələrinə baxmayaraq, havadarlarının himayəsi altında 1828-ci il martın 21-də "Erməni vilayəti" adlandırılan süni inzibati bölgünün yaradılmasına nail olmuşlar. 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza İrandan 40, Türkiyədən 84 min erməni köçürülərək Şimali Azərbaycan ərazisində yaradılmış Yelizavetpol və İrəvan quberniyalarının ərazisində yerləşdirilmişdir. Müəllif əsərdə bu faktları ümumiləşdirərək yazır: "Rusiya tərəfindən Cənubi Qafqazın işğal edilməsi prosesi I Pyotrun Xəzər yürüşündən başlandı və Xəzəryanı sahillərin Rusiyaya birləşdirilməsi ilə (1722-1723) başa çatdı. Lakin Nadir şah hakimiyyətə gələndən sonra Rusiya bu əraziləri tərk etməyə məcbur oldu. Yalnız 1747-ci ildə Nadir şahın ölümündən sonra Rusiya I Pyotrun Cənubi Qafqazı fəth etmək planına yenidən qayıtdı. Bu halda xüsusi qeyd etmək lazımdır ki, Cənubi Qafqazda xristian bufer dövləti yaradılmasına yönəlmiş köçürmə siyasəti həmin planın mühüm elementi idi. İmperatriça II Yekaterina I Pyotrun strategiyasını rəhbər tutaraq bu siyasəti səylə davam etdirirdi. Bu planın tamdəyərli reallaşması yalnız rus-İran müharibələri (1804-1813; 1826-1828-ci illər) başa çatandan və Rusiya Cənubi Qafqazı tamamilə işğal edəndən sonra mümkün oldu. 1828-ci ildə İran ilə Türkmənçay müqaviləsini imzalamaqla Rusiya ermənilərin Cənubi Qafqaz ərazisinə, daha dəqiq desək, əzəli Azərbaycan torpaqları olan keçmiş Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının ərazilərinə köçürülməsinin birinci dalğasını həyata keçirdi".

Əsərdən hasil olan əsas qənaətlərdən biri ondan ibarətdir ki, aparılan köçürmələr hesabına regionda ermənilərin yerli müsəlman əhaliyə faiz nisbəti süni şəkildə dəyişdirilmiş, beləliklə, monofizit erməni kilsəsinin milli dövlət yaratmaq səyləri Rusiya imperiyasının müstəmləkəçilik maraqları ilə çuğlaşmışdır. Yeni torpaqlara yerləşdirilmə müqabilində erməni ideoloqları çar Rusiyasına nökər xisləti ilə xidmət etmiş, vassala çevrilmişlər.

Akademik əsərdə haqlı olaraq bildirir ki, çar Rusiyasının ermənipərəst siyasətini davam etdirən sovet rəhbərliyi də azərbaycanlılara münasibətdə etnik zəmində ayrı-seçkilik siyasəti yürütmüşdür. Sovet hakimiyyətinin ilk illərində bədxah qonşularımız Zəngəzur ərazisini özlərinə birləşdirmiş, Qarabağ erməniləri üçün muxtariyyət verilməsinə nail olmuş, bununla da gələcəkdə Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına "zəmin yaratmaq" planlarını işə salmışlar. Nəticədə Xalq Cümhuriyyəti dövründə Azərbaycanın 114 min kvadratkilometr təşkil edən tarixi ərazisi 1920-ci illərdə 86,6 min kvadratkilometrə qədər azalmış, Zəngəzur, Göyçə və Azərbaycanın digər torpaqları Ermənistanın tərkibinə qatılmışdır. Eyni zamanda, Azərbaycanı Naxçıvanla birləşdirən ərazilərimiz Ermənistana verilmiş, beləliklə, qədim "Nuh yurdu" ankalava çevrilmişdir.

Əsərdə göstərildiyi kimi, Azərbaycana qarşı ərazi iddiaları II Dünya müharibəsindən sonra daha da genişlənmişdir. 1945-ci ilin noyabrında Ermənistan SSR rəhbərliyi heç bir ciddi əsaslı səbəb göstərmədən ittifaq hökuməti qarşısında Dağlıq Qarabağın bu respublikaya birləşdirilməsi məsələsini irəli sürsə də, niyyətinə nail olmamışdır.

davamı səh. 7

# SƏMƏRƏLİ HÜCUM STRATEGİYASI ÜÇÜN FUNDAMENTAL ELMİ İSTİNAD

əvvəli səh. 6

Bundan sonra onlar daha bir hiyləyə əl ataraq azərbaycanlıların deportasiyasına nail olmuşlar. Ermənistan SSR Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Q.Arutyunov "Suriya, Yunanıstan, İran, Bolqarıstan, Rumınya, Fələstin, Fransa, ABŞ, Misir, İraq və Livandan bu ölkəyə köçürülmüş ermənilərin yerləşdirilməsindəki çətinliklərdən" şikayət edərək Ermənistanda yaşayan azərbaycanlıların Azərbaycanın pambıqçılıq rayonlarında yerləşdirilməsini təklif etmişdir. O, Kür-Araz ovalığında pambıqçılığı inkişaf etdirmək üçün guya işçi qüvvəsinin çatışmadığını, bu addımın həmin rayonlarda pambıq istehsalının artımına da əsaslı təsir göstərəcəyini iddia etmişdir. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı 1948-1953-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından kütləvi surətdə deportasiyasını rəsmiləşdirmişdir.

Əsərdə, həmçinin vurğulanır ki, kütləvi deportasiya siyasətinin son mərhələsi 1988-1993-cü illərə təsadüf etmiş və Azərbaycana qarşı ərazi iddiaları etnik separatçılıq və təzavüzkarlıqla müşayiət olunmuşdur: "Bu prosesin son akkordu 1988-1993-cü illərdə 250 mindən çox azərbaycanlının Ermənistandan və 700 minə yaxın azərbaycanlının Dağlıq Qarabağdan və Azərbaycanın işğal edilmiş yeddi rayonundan qovulması oldu. Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, ilk növbədə, etnik azərbaycanlılara qarşı həyata keçirilən deportasiya, zor gücünə qovma və soyqırımı siyasətinin məntiqi nəticəsi və növbəti mərhələsi kimi baxmaq lazımdır. Erməni milli ideyasının tərkib hissəsi olan bu iyrənc siyasət Azərbaycanın işğal edilmiş ərazilərində etnik təmizləmələrdən sonra bu torpaqları Ermənistana birləşdirməyə yönəlmişdi".

Əsərdə 1988-ci ildən başlayaraq ermənilərin keçmiş sovet ittifaqı rəhbərliyinin fəal dəstəyi ilə Azərbaycana qarşı açıq ərazi iddialarına başladıqları, azərbaycanlıları etnik zəmində kütləvi şəkildə deportasiya etdikləri, Dağlıq Qarabağ və digər tarixi Azərbaycan ərazilərində soyqırımı aktları həyata keçirdikləri, eyni zamanda, məkrli plan əsasında Sumqayıt hadisələrini törətdikləri konkret faktlar əsasında diqqətə çəkilir. Həmçinin vurğulanır ki, 1993-cü ilin sonuna qədər Azərbaycanın keçmiş DQMV ilə həmsərhəd olan daha 6 rayonu - Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan işğal edilmiş, bu rayonların azərbaycanlı əhalisi isə daimi yaşayış yerlərindən qovulmuşdur.

Müəllif qeyd edir ki, 1988-1993-cü illərdə Qarabağda 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılmışdır. Hərbi əməliyyatlar dövründə 20 min azərbaycanlı həlak olmuş, 50 min nəfər yaralanmış, 4 minə yaxın azərbaycanlı itkin düşmüş, 2 mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülmüşdür.

Ümummilli lider Heydər Əliyevin ən yaxın və sadiq silahdaşlarından olmuş akademik Ramiz Mehdiyev 1993-cü ildə ulu öndərin xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra münaqişənin həlli prosesində keyfiyyətcə yeni mərhələnin başlandığını xüsusi qeyd edir. Bildirir ki, Ulu Öndər Heydər Əliyev münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun nizamlanması işində qətiyyətli addımlar atmış, ilk növbədə, ölkədə ictimai-siyasi sabitlik bərpa olunmuş, vahid plan əsasında döyüş qabiliyyətli nizami ordu quruculuğu başlanmış və tarazlaşdırılmış xarici siyasət həyata keçirilmişdir.

Cəbhə bölgəsində ciddi itkilər verən Ermənistan 1994-cü ilin mayında atəşkəsi nəzərdə tutan Bişkek protokolunu imzalamağa məcbur olmuş, həmin ilin dekabrında ATƏM-in Budapeşt sammitində münaqişənin nizamlanması yolunda ciddi irəliləyiş əldə edilmişdir. Sözügedən təşkilatın 1996-cı ildə Lissabon şəhərində keçirilmiş sammiti danışıqlar prosesində növbəti mühüm mərhələ olmuş, Minsk qrupunun həmsədrlərinin tövsiyə etdiyi üç prinsip - ərazi bütövlüyü; Dağlıq Qarabağa Azərbaycan tərkibində yüksək muxtariyyət statusunun verilməsi; Dağlıq Qarabağın və əhalisinin təhlükəsizliyinə zəmanətin verilməsi nizamlanmanın mühüm tərkib hissələri kimi qəbul edilmişdir.

Əsərdə münaqişənin sülh yolu ilə həlli istiqamətində müxtəlif illərdə aparılan danışıqlar prosesinin mahiyyətinə də ümumi nəzər salınır, Azərbaycanın münaqişənin Madrid prinsipləri əsasında həllində israrlı olduğu vurğulanır. Qeyd edilir ki, həmin prinsip çərçivəsində, ilk növbədə, Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş rayonların azad edilməsi və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması təmin olunmalıdır. İşğal olunmuş ərazilərin azad edilməsi ilə paralel Dağlıq Qarabağın erməni icmasının və işğal olunmuş ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıdacaq azərbaycanlıların təhlükəsizliyinin təmini üzrə tədbirlər görülməlidir. Yalnız bu proseslər başa çatandan və qarşıdurmanın kəskinliyi azalandan sonra Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının bərabərhüquqlu dialoqu çərçivəsində regionun gələcək statusunun müəyyən edilməsi üzrə siyasi-hüquqi proses başlana və bu proses nəticəsində qəbul edilmiş qərarlar həm Ermənistanda, həm də Azərbaycanda legitim hesab edilə bilər.

Akademik Ramiz Mehdiyev haqlı olaraq Ermənistanda indiyə qədər hakimiyyətdə olmuş şəxslərin münaqişənin həllini süni şəkildə uzatmaq siyasəti yürütdüklərini, bu destruktiv xəttin hazırda baş nazir N.Paşinyan tərəfindən davam etdirildiyini yazır. Əsərdə, eyni zamanda, münaqişənin həllinin uzanmasının Ermənistana böyük itkilər hesabına başa gəldiyi, bu ölkənin qlobal iqtisadi təcrid vəziyyətinə düşdüyü konkret faktlar əsasında qeyd olunur. Bildirilir ki, "Nə hərb, nə sülh" vəziyyəti onsuz da xarici dəstək hesabına yaşayan Ermənistana milyonlar bahasına başa gəlsə də, yeni baş nazir Paşinyan da hakimiyyətdə qalmaq üçün bundan "yaxşı" çıxış yolu görmür.

Tənzimləmə prosesində beynəlxalq hüquq normalarına istinad imkanları tamamilə daralan, ideoloji, siyasi, hüquqi və iqtisadi müstəvilərdə Azərbaycana uduzan təcavüzkar tərəfin son vaxtlar absurd bəyanatlar verməsi də, əslində, xof və təşviş isterikasının ifadəsidir. Bu reallıqları diqqətə çəkən müəllif haqlı olaraq yazır: "Bütün bu illər ərzində erməni cəmiyyəti döyüş meydanında qazanılan "qələbə"ni tezliklə diplomatik sahədə möhkəmləndirmək ümidi ilə yaşayıb. Lakin Ermənistan rəhbərliyi bir məsələni başa düşə bilməyib ki, qonşu dövlətə təcavüz etməklə, onun ərazisini işğal etməklə, etnik təmizləmələr aparmaqla, şəhər və kəndlərini viran qoymaqla, Ermənistan, əslində, qalib gəlməyib, uduzub! O bu qədər fürsəti əldən verərək sülhü uduzub. Bunu başa düşmək üçün bugünkü Azərbaycanı Ermənistanla müqayisə etmək, onların sosial-iqtisadi inkişafında fərqi qiymətləndirmək kifayətdir və bu fərq ildən-ilə daha da artacaq. Məsələn, 2018-ci ilin sonuna olan vəziyyətə görə, Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatını 4 dəfə üstələyib, Azərbaycanın strateji valyuta ehtiyatları Ermənistanın analoji göstəricilərindən 20 dəfə, əhalisi isə 3,3 dəfə çoxdur".

Əsərdə Ermənistanın ciddi iqtisadi çətinliklərlə üzləşdiyi, demoqrafik vəziyyətin pisləşdiyi, əhalinin qocaldığı, doğum sayının azaldığı və miqrasiya səviyyəsinin artdığı konkret faktlar əsasında diqqətə çəkilir. Bunun müqabilində Azərbaycanı ötən illərdə Cənubi Qafqazın lider ölkəsinə çevirərək təkcə iqtisadi cəhətdən deyil, hərbi cəhətdən də xeyli möhkəmlənmiş, 2016-cı ilin Aprel döyüşləri zamanı düşmənin layiqli cavabını verərək işğal altındakı ərazilərinin bir hissəsini azad etmişdir.

Əsərdə Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasının beynəlxalq hüquq norma və prinsipləri baxımından yolverilməzliyi xüsusi vurğulanır, Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində yüksək statusun verilməsi mümkünlüyündən bəhs edilir: "Ermənistanın istinad etdiyi xalqların öz müqəddəratını təyin etmək hüququ özbaşınalıq və sərhədləri öz istədiyi kimi dəyişdirmək hüququ demək deyildir. Əks təqdirdə, dünyada milli azlıqlar olmazdı, çünki onların hamısı, hətta ən azsaylı olanlar da öz müqəddəratını təyin etmək hüququndan istifadə edər, özlərini dünya birliyinin müstəqil subyektləri elan edər və beynəlxalq miqyasda tanınmalarını istəyərdilər. Ermənistan bununla barışmalı olacaq ki, Dağlıq Qarabağın erməni əhalisi kimi milli azlıqların öz müqəddəratını təyin etməsi yalnız beynəlxalq hüquq çərçivəsində və Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla mümkündür".

Ümumiyyətlə, keçmiş ittifaqdan "miras qalmış" münaqişələrin mahiyyətinə nəzər saldıqda aydın görünür ki, separatçı rejimlər xarici dəstək hesabına qeyri-qanuni şəkildə nəzarət altında saxladıqları ərazilərdəki fəaliyyətlərini "pərdələmək" üçün beynəlxalq hüququn "milli özünütəyinetmə" prinsipinə istinad etməyə çalışırlar. Ermənistan tərəfinin millətlərin öz müqəddəratını təyinetmə hüququnun dövlətlərin ərazi bütövlüyündən guya daha üstün olması barədə iddiaları isə reallıqdan tamamilə uzaqdır. Əlbəttə, öz müqəddəratını təyinetmə prinsipi hər bir xalqın beynəlxalq hüquqda təsbit olunmuş müstəsna hüququdur və Azərbaycan dövləti bu hüquqa hörmətlə yanaşır. Lakin beynəlxalq normalara görə, müstəqil dövləti olmayan xalqlar müəyyən hüquqi çərçivədə öz müqəddəratını təyin etmək iddiası ilə çıxış edə bilərlər.

Ermənilər artıq bir dəfə müqəddəratlarını əzəli Azərbaycan torpaqlarında "təyin etməklə" Ermənistan Respublikasını yaratmışlar. Azərbaycan Prezidenti cənab İlham Əliyev bununla bağlı qətiyyətli mövqeyini ortaya qoyaraq ikinci erməni dövlətinin yaradılmasının yolverilməzliyini dəfələrlə bəyan etmişdir: "Ermənilər vaxtaşırı beynəlxalq hüququn vacib elementi olan "millətlərin öz müqəddəratını təyin etmək" hüququ ilə manipulyasiya etməyə çalışırlar. Lakin bildirmək istəyirəm ki, ermənilər artıq bir millət kimi öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti vardır. Ermənilərin yaşadıqları bütün ölkələrdə "öz müqəddəratlarını təyin etməyə" başladıqları halda nələrin baş verəcəyini təsəvvür etmək çətin deyildir".

Öz müqəddəratını təyinetmə subyektinin milli azlıq deyil, xalq və millət olması da ciddiliklə nəzərə alınmalıdır. Azərbaycan ərazisində yaşayan milli azlıqlar müqəddəratı təyin etmək hüququnun subyekti olmadığına görə onların iradəsi Azərbaycan dövləti ərazisinin dəyişdirilməsi üçün əsas ola bilməz. Yəni belə bir hüquq yalnız dövlət ərazisində yaşayan vahid xalqa verilə bilər. Dağlıq Qarabağda yaşayan ermənilər isə milli azlıq olduqlarına görə onlara öz müqəddəratlarını təyinetmə hüququnun verilməsindən söhbət gedə bilməz.

"Dövlətlərin müqavilələrə münasibətdə hüquq varisliyi haqqında" 23 avqust 1978-ci il tarixli Vyana Konvensiyasına əsasən, dövlətlərin hüquq varisliyi müqavilələrlə müəyyən edilmiş sərhədlərə toxunmur. Azərbaycan dövlət müstəqilliyini əldə etməklə xalqın yaşadığı ərazi məsələsini də birmənalı şəkildə həll etmişdir. Həmin ərazi müstəqil Azərbaycan dövlətinin ərazi statusunu almışdır. Bu mənada, SSRİ-nin dövlət kimi tənəzzülə uğraması Azərbaycan dövlətinin ərazisinin dəyişdirilməsinə səbəb ola bilməz.

Akademik Ramiz Mehdiyev əsərdə Ermənistanın yeni baş naziri N.Paşinyanın son dövrlər irəli sürdüyü iddiaların da cəfəng və reallıqdan uzaq olduğunu diqqətə çatdırır: "N.Paşinyandan bunu soruşmaq maraqlı olardı: O, "Dağlıq Qarabağ xalqı" kimi birmənalı olmayan anlayışa əzəldən bu torpaqda yaşayan etnik azərbaycanlıları da daxil edirmi? Axı aydın məsələdir ki, münaqişənin hər hansı həlli Dağlıq Qarabağın Azərbaycan icmasının maraqları nəzərə alınmadan Azərbaycan üçün məqbul sayıla bilməz".

Yekun olaraq vurğulayaq ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" əsəri Azərbaycanın son 30 ildə üzləşdiyi erməni separatizminə fundamental tarixi, politoloji və hüquqi elmi baxış olub, bədxah qonşularımızın əsassız ərazi iddialarının beynəlxalq miqyasda ifşası baxımından son dərəcə əhəmiyyətlidir.

Əsərlə tanışlıqdan doğan ən ümumi, yetkin qənaət isə ondan ibarətdir ki, Azərbaycan hakimiyyəti münaqişənin həlli ilə bağlı prinsipial mövqeyindən heç zaman çəkilməyəcək, xalqın dəstəyi ilə işğal olunmuş torpaqlarımızın azad edilməsi, ədalətin bərpası, milli maraqların təminatı üçün zəruri məqamda güc amilindən istifadədən belə çəkinməyəcəkdir.

**Mübariz QURBANLI,**
*Yeni Azərbaycan Partiyası icra katibinin müavini,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
***"Azərbaycan" qəzeti***
*12 iyun 2019-cu il*

# "ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ-70: MƏNƏVİYYATA HƏSR OLUNMUŞ ÖMÜR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamına uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən hazırlanan Tədbirlər Planına əsasən regionlarda silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.



Tədbirlərdən birincisi iyunun 8-də Lənkəran rayonunda təşkil olunub. DQİDK, Lənkəran Şəhər İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə rayonda "Şeyxülislam Allahşükür Paşazadə-70: mənəviyyata həsr olunmuş ömür" mövzusunda regional konfrans keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsinin rəhbər işçiləri, Milli Məclisin üzvləri, tanınmış ictimai-siyasi xadimlər, Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarının din xadimləri iştirak ediblər.





Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla anılıb.

Konfransda Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun Şeyxülislam Allahşükür Paşazadənin həyat və fəaliyyəti ilə bağlı məruzəsi dinlənilib.

Qeyd olunub ki, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyi ilə əlaqədar ilk tədbirin onun doğulub boya-başa çatdığı Lənkəranda keçirilməsi rayon sakinləri tərəfindən böyük sevinclə qarşılanıb.



Konfransda çıxış edən DQİDK sədri Mübariz Qurbanlı QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, təbliği, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafı, eləcə də ayrı-ayrı etiqadlar arasında qarşılıqlı etimad mühitinin yaradılması sahəsindəki səmərəli xidmətlərindən danışıb.

Bildirib ki, Şeyxülislam A.Paşazadə istər Azərbaycanda, istərsə də regionda baş verən mühüm hadisələr zamanı sülhməramlı missiya daşıyıb, xalqın həyatında, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əhəmiyyətli rol oynayıb. Ötən əsrin 80-90-cı illərində xalqımızın öz soykökünə, mənəviyyatına, dilinə, dininə qayıdışında Şeyxülislamın şəxsi rolunu, onun rəhbərlik etdiyi dini idarənin əməli fəaliyyətini görməmək mümkün deyil. O, Azərbaycanda baş verən daxili çəkişmələrə, müstəqilliyimizə kölgə salanlara qarşı din xadimi kimi, vətəndaş kimi öz qəti mövqeyini nümayiş etdirib.

Komitə sədri vurğulayıb ki, Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin qurulmasında da Şeyxülislamın xidmətləri danılmazdır. Allahşükür Paşazadə müstəqilliyimizin ilk illərində, çox mürəkkəb bir şəraitdə ümummilli lider Heydər Əliyevin dinə, milli-mənəvi dəyərlərə münasibətdə yürütdüyü müdrik siyasətin həyata keçirilməsində yaxından iştirak edib.

Prezident İlham Əliyevin bu il Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi barədə Sərəncam imzalaması A.Paşazadənin bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyəti, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlərinə verilən yüksək dəyərin göstəricisidir.

Bakı Dövlət Universitetinin professoru Anar İsgəndərov, Milli Məclisin deputatları Hadı Rəcəbli, Cavanşir Paşazadə, Hüseynbala Mirələmov, Fəzail Ağamalı, Fəzail İbrahimli, QMİ-nin Masallı bölgəsi üzrə qazısı Mirqiyas Təhməzov, Lənkəran Rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbə müdiri Qağayı Məmmədov, QMİ-nin Lənkəran bölgəsi üzrə qazısı Qəni Axundzadə Şeyxülislam Allahşükür Paşazadəni 70 illik yubileyi münasibətilə təbrik edərək onun xidmətlərindən danışıblar.

QMİ-nin sədri, Şeyxülislam Allahşükür Paşazadə tədbirin təşkilatçılarına minnətdarlığını bildirərək Ulu Öndərlə bağlı xatirələrindən danışıb. Bildirib ki, Heydər Əliyev Böyük Yaradanın Azərbaycana bəxş etdiyi ən böyük pay idi. Ümummilli Lider xalqımıza müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsi əmanət edib. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev kimi rəhbəri var.

Prezident İlham Əliyevin "Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamını minnətdarlıqla vurğulayan A.Paşazadə qeyd edib ki, ölkəmizə qədəm basan hər kəs tərəqqi və inkişafın şahidi olur. Bu uğurların təməlində Prezident İlham Əliyevin fəaliyyəti və müdrik siyasəti durur. Bu siyasətin təməlində dövlət-xalq birliyi, Prezident-vətəndaş həmrəyliyi dayanır. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.

Bildirilib ki, dünyanın bir çox ölkəsində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru, həyata keçirilən siyasətin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya miqyasında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır.

Çıxışlardan sonra konfrans iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

Sonda Şeyxülislam Allahşükür Paşazadəyə Lənkəranda toxunmuş xalça hədiyyə edilib.

# ŞƏKİDƏ "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR" MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB



Terror və ekstremizm müasir dünya üçün ən ciddi təhdidlərdəndir. Dünyanın bir çox ölkələrində din amilindən istifadə vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxarır. Hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə soyuq müharibə illərindəki ideoloji toqquşmanı əvəz edib.



Bu fikirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə iyunun 25-də Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfransda səsləndirilib.

Dövlət Komitəsinin və şəhər icra hakimiyyətinin rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçı və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi konfransın əvvəlində azərbaycançılıq ideologiyasına həsr olunan sənədli film nümayiş etdirilib.

Sonra çıxış edən Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu, dünyada nümunəvi model kimi qiymətləndirildiyini bildirib. Qeyd olunub ki, dövlət din sahəsinə qayğı, dəstək göstərir və bu siyasət tolerantlığın tərkib hissəsi kimi həyata keçirilir. Dövlət dini qurumlar və dini icmalar arasında münasibətlərin sağlam əməkdaşlıq və tolerantlıq əsasında qurulması işinə yardım göstərir. Bu, ölkədə ümumi ictimai-siyasi sabitliyin qorunub saxlanmasının mühüm şərtidir.

Diqqətə çatdırılıb ki, hazırda Şəkidə dövlət qeydiyyatından keçmiş 28 dini icma fəaliyyət göstərir. Dini icmalarla qarşılıqlı münasibətlərin formalaşması nəticəsində rayonda dini durum sabitdir, dövlət-din münasibətləri qanunvericilik bazası əsasında tənzimlənir, zərərli təriqətlərin rayon ərazisində yayılmasının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması istiqamətində görülən işlər barədə danışıb.

Bütün dövrlərdə terrorun olduğunu bildirən Komitə sədri vurğulayıb ki, indi terrorun da mahiyyəti dəyişib və terror müxtəlif formalarda təzahür edir. “Müasir terror orta əsrlərin terrorundan kəskin şəkildə fərqlənir. Müasir terror texnoloji nailiyyətlərdən yararlanır. Terror təhlükəsinin dünya problemləri, çağırışları içərisində yer tutması dinlə əlaqədar məsələləri də gündəmə gətirir. Çünki dindən həmin terror təşkilatlarında ideoloji vasitə kimi istifadə olunur. Biz bunu Yaxın Şərq ölkələrində, o cümlədən qeyri-islam ölkələrində görməkdəyik”.



İslam dinindən terrorda istifadədə bir neçə məqsədin güdüldüyünü vurğulayan Komitə sədri deyib: “Bu məqsədlərdən biri İslam daxilindəki məzhəblərarası qarşıdurmanı dərinləşdirməklə gənc nəsildə bir-birinə qarşı nifrət hissi oyatmaq və son nəticədə həmin İslam dövlətində bu məzhəblərarası qarşıdurmadan istifadə edərək ölkəni zəiflətmək, çökdürmək və dağıtmaqdır”.

Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən söz açan Mübariz Qurbanlı bu modelin dünyada rəğbətlə qarşılandığını deyib. Əlavə edib ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, dünyagörüşünün, müdrik tövsiyələrin bu günün reallıqları kontekstində oynadığı müsbət rolu daha aydın görürük. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət, əldə edilən uğurlar, ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü göstərir.

Çıxışında dinə dövlət qayğısının önəminə toxunan Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Kamran Məmmədov regionlarda keçirilən bu cür maarifləndirici tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN RƏHBƏRLİYİ ŞƏKİ, QƏBƏLƏ VƏ OĞUZDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu sədvəlinə uyğun olaraq iyunun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şəki, sədrin müavinləri Səyavuş Heydərov Qəbələ, Gündüz İsmayılov isə Oğuz rayonunda vətəndaşları qəbul ediblər.





Qəbuldan öncə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin şəhərdə ucalan abidəsini ziyarət ediblər.

Qəbullarda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ARGENTİNANIN ÖLKƏMİZƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞÜB

İyunun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Argentina Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella ilə görüşüb.

Səfirə yeni diplomatik missiyasında uğurlar arzulayan Mübariz Qurbanlı əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın dövlət-din modelini bu gün Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində multikulturalizmin respublikamızda dövlət siyasətinə və həyat tərzinə, tolerantlığın isə xalqımız üçün yüksək mədəni dəyərə çevrildiyini bildirib.

Komitə sədri tolerantlığın Azərbaycan xalqının ruhunda olduğunu deyərək bu dəyərin ölkəmizin siyasi və ictimai həyatında da özünü göstərdiyini söyləyib. Roma Papaları II İohann Pavel və Fransiskin ölkəmizə tarixi səfərlərini xatırladan Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizdə yəhudi sinaqoqları, pravoslav, katolik və lüteran kilsələri fəaliyyət göstərir. Söhbət zamanı qarşı tərəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni və dini irsin talan və məhv edilməsi siyasəti haqqında da ətraflı məlumat verilib.



Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Serxio Osvaldo Perez Qunella respublikamızın sürətli inkişaf yolunda olduğunu bildirib, Azərbaycanda qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, gündəlik həyatında ölkəmizdəki tolerant və multikultural mühitin şahidi olduğunu diqqətə çatdırıb.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşün sonunda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK"

## QAZAXDA

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qazax Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə iyunun 13-14-də "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.




Dini icma sədrləri, gənclər və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Məhəmməd Orucov Qazax rayonundakı dini durum barədə məlumat verib. Natiq, eyni zamanda rayonda dindarlara göstərilən diqqət və qayğıdan danışıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı öncə tədbir iştirakçılarını 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbrik edib. Sədrin birinci müavini bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizin ictimai-siyasi, dini, sosial, iqtisadi və elmi-mədəni həyatında dönüş yarandı, eləcə də beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıldı. Azərbaycandakı dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider tərəfindən qoyulduğunu diqqətə çatdıran Səyyad Salahlı qeyd edib ki, bu siyasət bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. DQİDK sədrinin birinci müavini respublikamızda mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin göstərildiyini bildirib. Onun sözlərinə görə, din xadimlərinə maddi dəstəyin göstərilməsi, xalqımızın tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun, həmçinin Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bütün bunların bariz nümunəsidir.

Dövlət Komitəsi sədrinin birinci müavini, eyni zamanda gənclərin, ziyalıların və din xadimlərinin, bütövlükdə cəmiyyətin dini ekstremizmlə mübarizədə fəal olmalarının vacibliyini vurğulayıb.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

## GƏNCƏDƏ

Bu qəbildən olan növbəti ikigünlük seminar-müşavirə iyunun 24-25-i DQİDK və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə keçirilib.

Dindarlar, dini icma sədrləri, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Həsən Məmmədov Gəncədə dini durumun sabit olduğunu bildirib. Natiq onu da deyib ki, ölkəmizdə vicdan azadlığının təmin edilməsi, dini icmalara fəaliyyətlərinin genişləndirilməsi məqsədilə dövlət tərəfindən mütəmadi olaraq qayğı göstərilir.



Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu nümunəvi siyasətin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

S.Salahlı onu da vurğulayıb ki, Azərbaycanda din-dövlət münasibətləri nümunəvi xarakter daşıyır, tolerantlıq və multikultural mühit hökm sürür. Hazırda ölkə ərazisində 2250 məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Dövlət Komitəsi sədrinin birinci müavini deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə respublikamızın mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. "Bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusi qeyd olunmalıdır", – deyə S.Salahlı əlavə edib.

Milli Məclisin deputatı, Gəncə Dövlət Universitetinin prorektoru Pərvin Kərimzadə Azərbaycanda multikultural ənənələrin təbliği və təşviqində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin böyük rolu olduğunu diqqətə çatdırıb. Millət vəkili qeyd edib ki, Azərbaycanda dini qurumlar arasında qarşılıqlı anlaşma və harmoniya mühitinin formalaşmasında Dövlət Komitəsinin fəaliyyəti xüsusi əhəmiyyətə malikdir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev isə çıxışında milli kimliyimizi qorumağın vacibliyini diqqətə çatdırıb. Natiq, eyni zamanda milli kimliyimizi və dəyərlərimizi gələcək nəsillərə çatdırmağın əhəmiyyətinə toxunub.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub.

# “DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR” MÖVZUSUNDA KONFRANS OLUB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaranmasının 18 illiyi münasibətilə ilə iyun ayının 21-də “Dövlət-din münasibətləri: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilib.




Tədbiri giriş sözü ilə açan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra mürəkkəb daxili və beynəlxalq vəziyyətdə dövlət quruculuğuna başlayan ölkəmiz üçün dəyərlər sisteminin dəqiqləşdirilməsi müstəsna əhəmiyyətə malik idi. Belə bir zamanda dövlətin dinə, eləcə də ölkədə fəaliyyət göstərən fərqli dini konfessiyalara və icmalara münasibətinin prinsipial məqamlarının müəyyənləşdirilməsi vacib hesab edilirdi. Müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərimizin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu.




Qısa müddətdə görülən işlər, proseslərin gedişi, qlobal miqyasda baş verən hadisələr təsdiqlədi ki, Ulu Öndər Dövlət Komitəsini yaratmaqla ölkədə din siyasətini daha da möhkəmləndirmiş, tolerantlıq mühitinin inkişaf etdirilməsinə yeni bir təkan vermiş və baş verə biləcək mənfi halların qarşısını əvvəlcədən almışdır.

Dinə dövlət qayğısından da söz açan sədrin birinci müavini vurğulayıb ki, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində Ümummilli Liderin yolu ilə inamla və sürətlə irəliləyən Azərbaycan bu gün həm sosial-iqtisadi göstəricilərinə görə, həm də milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına və tolerantlığın təşviqinə böyük önəm verir.



Ardınca DQİDK-nın sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsinin fəaliyyət istiqamətlərini özündə əks etdirən təqdimatla çıxış edib. Sədr müavini çıxışında Dövlət Komitəsinin 18 il ərzindəki fəaliyyətinə, dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində görülən işlərə, həyata keçirilən layihələrə nəzər salıb. Dini qurumların dövlət qeydiyyatı və onlarla iş, dinşünaslıq ekspertizası, dini radikalizmlə mübarizə, dini maarifləndirmə işi, xarici və ictimaiyyətlə əlaqələr sahələri barədə statistik rəqəmləri diqqətə çatdırıb.

Sədr müavini Səyavuş Heydərov Dövlət Komitəsinin kollektivinin öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirmək, din sahəsində mövcud məsələlərin sürətlə həllinə və dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsinə nail olmaq üçün var qüvvəsi ilə çalışdığını bildirib. DQİDK-nın son illərdə fəaliyyətini xeyli genişləndirdiyini qeyd edən S.Heydərov Komitənin müvafiq dövlət qurumları ilə sıx əməkdaşlıq etdiyini, dini qurumlarla iş sahəsində xeyli irəliləyişlər əldə olunduğunu deyib. O, Prezident İlham Əliyevin müvafiq Fərman və Sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını dövlət-din münasibətlərinin tənzimlənməsi və din sahəsinə dövlət qayğısı baxımından əlamətdar hadisə kimi dəyərləndirib.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsul işçisi Əliheydər Zülfüqarov Komitənin fəaliyyətini yüksək qiymətləndirib. O, DQİDK-nın din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində apardığı işlərə diqqət çəkib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev Qafqaz Müsəlmanları İdarəsi ilə DQİDK-nın uğurlu əməkdaşlığından bəhs edib. Qurumların birgə təşkil etdiyi tədbirlərin önəminə toxunan F.Nurullayev Azərbaycanda dini qurumlar arasında qarşılıqlı anlaşma və harmoniya mühitinin formalaşmasında Dövlət Komitəsinin fəaliyyətinin xüsusi əhəmiyyətə malik olduğunu deyib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov isə çıxışlarında Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin Dövlət Komitəsinin tabeliyində bu qurumları yaratmasını dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində aparılan işlərə töhfə adlandırıblar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) şöbə müdiri Yadigar Məmmədli Azərbaycanda multikultural ənənələrin təbliği və təşviqində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin böyük rolu olduğunu diqqətə çatdırıb. BBMM və DQİDK-nın effektiv birgə fəaliyyətinə toxunan Y.Məmmədli Komitəyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski və Azərbaycan Bibliya Cəmiyyəti dini icmasının sədri Rasim Xəlilov Komitənin dini qurumlarla işindən razılıqlarını dilə gətiriblər. İcmaların rastlaşdığı problemlərin həllində göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# "DİNİ EKSTREMİZM – İCTİMAİ VƏ MƏNƏVİ DƏYƏRLƏRƏ TƏHLÜKƏ MƏNBƏYİ KİMİ"

### ŞABRANDA

İyunun 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şabran Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini ekstremizm – ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda seminar-müşavirə keçirilib.

Din sahəsində mövcud problemlərin, dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər və qarşıda duran vəzifələrin müzakirə olunduğu tədbirdə DQİDK və Şabran RİH rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının icra və hüquq-mühafizə orqanlarının rəsmiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak edib.



Seminar-müşavirədə çıxış edən DQİDK-nin sədr müavini Səyavuş Heydərov bildirib ki, milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Gənclərimizin radikal dini təsirlərdən qorunması üçün milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunması vacibdir. Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə bu istiqamətdə mühüm addımlar atılıb. Prezident İlham Əliyev tərəfindən adət-ənənələrimizin, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunmasına diqqət və qayğı göstərilir.

S.Heydərov dini radikalizm, ekstremizm və onların fəsadları barədə də ətraflı məlumat verib. O diqqətə çatdırıb ki, bəzi qruplar tərəfindən din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına yönəlmiş pozuculuq fəaliyyətlərinə cəhdlər edilir. Bu cür hallara qarşı dövlət qurumları tərəfindən ciddi mübarizə aparılır. DQİDK-nın sədr müavini vurğulayıb ki, olduqca mürəkkəb, qlobal güclərin maraqlarının bir çox sferada toqquşduğu, habelə siyasi iddiası böyük olan dövlətlərin mübarizə meydanına çevrilən regionda yerləşən ölkəmizə qarşı bir sıra istiqamətlərdən, o cümlədən dini mövqedən təhdidlərin səngiməediyi müşahidə olunur. Bu kontekstdə ən önəmli amillərdən biri də dini təhlükəsizlik məsələsidir.

Tədbirdə, həmçinin dini radikal və ekstremist fəaliyyətin ictimai təhlükəsizliyə açıq təhdid olduğu, ona qarşı müştərək mübarizənin vacibliyi vurğulanıb. Dini radikalizm və ekstremizmə qarşı mübarizə və bu sahədə qanunların tələblərinə riayət edilməsi istiqamətində görülən tədbirlərdən bəhs olunub.

### QƏBƏLƏDƏ

Bu qəbildən olan növbəti seminar-müşavirə iyunun 24-də DQİDK və Qəbələ RİH-in birgə təşkilatçılığı ilə keçirilib.

Seminar-müşavirədə DQİDK və Qəbələ RİH-in rəhbərliyi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin məsul işçiləri, Qəbələ, İsmayıllı, Ağsu və Oğuz rayonlarının icra və hüquq-mühafizə orqanlarının, eyni zamanda Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşları, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.



Seminar-müşavirədə Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlikdən, əmin-amanlıqdan, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından danışan DQİDK-nın sədr müavini Səyavuş Heydərov qeyd edib ki, ölkəmizdə bütün dünyaya nümunə ola biləcək dövlət-din münasibətləri, tolerantlıq, multikulturalizm, birgəyaşayış ənənəsi formalaşıb. Azərbaycanın bu nümunəvi modelini qorumaq, yeni nəsillərə ötürmək hər birimizin borcudur.

Səyavuş Heydərov bildirib ki, hazırki dövrdə dini ekstremizm və terrordan ciddi əziyyət çəkən dövlətlər var. Terror hadisələri səbəbindən dünyanın bir çox bölgəsində ictimai sabitlik pozulur, vətəndaş qarşıdurması yaranır, milyonlarla insan qaçqın və didərgin həyatı yaşayır. Cəmiyyətin dinclik və xoşbəxtliyinə səbəb olan dinin, əhalinin dinclik və etibarını təhdid edəcək şəkildə terrorçu və ekstremist qruplar tərəfindən istismarı dövlət təhlükəsizliyi üçün böyük təhdid yaradır. Bu baxımdan dinin insan mənəviyyatında, əxlaqında və ictimai şüurunda oynadığı mühüm rolun və təsirin doğru məcraya yönləndirilməsi mühüm məsələdir. Komitə rəsmisi diqqətə çatdırıb ki, din dövlətdən ayrı olsa da, dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır. Onun sözlərinə görə, ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən Azərbaycana təkcə siyasi yox, həm də dini müstəvidə təsirlərin göstərilməsinə, yad dini ideologiyaların ixrac edilməsinə cəhdlər olunur: "Biz islami dəyərlərin Azərbaycanda inkişaf etməsini, İslam dininin mənəviyyat amili kimi həyatımızda olmasını istəyirik. Xalqımız İslam dinindən siyasi məqsədlər üçün istifadəyə, xurafata meyilliliyə, dini radikalizmə bundan sonra da imkan verməyəcək. Ölkə vətəndaşlarını, xüsusən də gəncləri yad təsirlərdən qorumaq üçün hər birimiz çalışmalıyıq".

Seminar-müşavirə mövzu ətrafında müzakirələrlə işini yekunlaşdırıb.

# "AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN YERİ VƏ ROLU"

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə iyun ayının 11-də "Azərbaycan həqiqətlərinin təbliğində dini icmaların yeri və rolu" mövzusunda konfrans keçirilib.



Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təmsilçiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, eləcə də gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, ölkəmizdəki dini dözümlülük, multikultural və tolerant mühitin qorunub saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, sevindirici haldır ki, Ulu Öndərin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda bütün dini konfessiyaların fəaliyyətinə lazımi şərait yaradılıb, onlar dövlətin qayğısı ilə əhatə olunublar. Azərbaycanda məscid və ziyarətgahlarla bərabər, xristian və yəhudi məbədlərinin tikintisi və bərpası bütün dünyaya nümunə göstəriləcək haqiqətdir.

Ölkəmizdə bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşdığını, milli və dini zəmində heç bir ayrı-seçkilik faktının qeydə alınmadığını deyən sədr müavini Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qrupların respublikamızda özlərini nəinki yad hesab etmədiklərini, fərqli dini konfessiyaların nümayəndələri hər zaman xalqımızla ilə həmrəy olduğunu, Vətənimizin azadlığı və firavanlığı uğrunda mübarizə apardıqlarını diqqətə çatdırıb.

Azərbaycan həqiqətlərinin təbliği istiqamətində görülən işlərə toxunan sədr müavini bu istiqamətdə təşkil olunan tədbirlərin coğrafiyasının geniş olduğunu deyib. Əlavə edib ki, bu istiqamətdə nəşr olunan kitabların, sənədli filmlərin, xüsusilə sosial şəbəkələrdəki fəaliyyət mühüm rola malikdir.

Cəmiyyətin bütün sahələrində fəallıq göstərən dini konfessiyaların Azərbaycan həqiqətlərinin təbliği nöqteyi-nəzərindən dövlət qurumları ilə yanaşı təbdirlər gördüyünü bildirən Komitə rəsmisi bugünkü konfransın sözügedən məsələdə icmaların aktivliyinin daha da artırılması məqsədilə təşkil olunduğunu qeyd edib.

davamı səh. 13

# "AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN YERİ VƏ ROLU"

əvvəli səh. 12

Qarabağla bağlı faktların, xalqımızın əsrlər boyu formalaşdırdığı multikultural və tolerant dəyərlərinin, eləcə də ölkəmizin tarixinin, mədəniyyətinin, o cümlədən Azərbaycandakı dini durumla bağlı obyektiv məlumatların Azərbaycan həqiqətləri kimi təbliğ olunmasının zəruriliyini önə çəkən G.İsmayılov bu sahədə QMİ, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Dağ və Avropa yəhudiləri, katolik və Alban-udi dini icmalarının uğurlu fəaliyyətinə diqqət çəkib.

QMİ-nin sədr müavini Fuad Nurullayev bildirib ki, ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada müxtəlif dini konfessiyaların nümayəndələri əmin-amanlıq şəraitində birgə yaşayırlar, bütün dini inanclara, onların mənsublarına hörmətlə yanaşılır. Qədim tarixi, zəngin mədəniyyəti olan Azərbaycanın bu nümunəvi modelinin respublikamızın nüfuzunun dünya miqyasında daha da artmasına gətirib çıxardığını vurğulayan QMİ sədrinin müavini Azərbaycandakı dini konfessiya rəhbərlərinin bir-birinə olan dostluq, qardaşlıq münasibətlərinin xarici ölkələrə səfərlər zamanı heyranlıqla qarşılandığını deyib.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev rəhbərlik etdiyi icmanın bu sahədə gördüyü işlərə toxunub. Ölkəmizə səfər edən xarici jurnalistlərin Azərbaycandakı dinlərarası harmoniyanın canlı şahidi olduğunu bildirən icma sədri ölkə həqiqətlərinin təbliği istiqamətində təşkil olunan yerli və beynəlxalq tədbirlərin, səfərlərin önəmindən bəhs edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəsi Yadigar Məmmədli Azərbaycandakı tolerant və multikultural mühitin təbliğ və təşviq edilməsinin təmsil etdiyi qurumun əsas vəzifələrindən biri olduğunu qeyd edib. Y.Məmmədli dünyanın 19-dan çox ölkəsində "Multikulturalizmə giriş" fənninin tədrisinin, dünyanın müxtəlif ölkələrinin gənclərinin qoşulduğu qış və yay məktəblərinin təşkilinin, eləcə də "Azərbaycanın gənc dostları" Beynəlxalq klubunun fəaliyyət göstərməsinin bu istiqamətdəki işlərdə xüsusi rola malik olduğunu bildirib.

Daha sonra çıxış edən Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri, xalq artisti Aleksandr Şarovski, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının sədri Vera Nesterova, Azərbaycan Bibliya Cəmiyyətinin sədri Rasim Xəlilov və "Yeni Həyat" Xristian İncil dini icmasının sədri Lyudmila İbrahimova ölkəmizdə mövcud olan tolerantlıq və multikultural ənənələrin, eyni zamanda Azərbaycanın işğal olunmuş ərazilərində mədəni irsimizə qarşı vandalizm faktlarının beynəlxalq ictimaiyyətə çatdırılmasında dini icmaların üzərinə düşən vəzifələr barədə danışıblar.

# "HƏRBİ VƏTƏNPƏRVƏRLİYİN GÜCLƏNDİRLİMƏSİNDƏ DİNİ İCMALARIN YERİ VƏ ROLU"



İyunun 20-də DQİDK-nın təşkilatçılığı ilə "Hərbi vətənpərvərliyin gücləndirilməsində dini icmaların yeri və rolu" mövzusunda konfrans keçirilib.

Konfransda Prezident Administrasiyası, Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Polis Akademiyasının təmsilçiləri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəhbər şəxsləri, eləcə də ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iştirak ediblər.

Tədbirdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmindən fraqmentlər nümayiş etdirilib, daha sonra şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan DQİDK-nın sədr müavini Səyavuş Heydərov torpaqlarının 20 faizi düşmən tapdağında olan, on minlərlə şəhid vermiş Azərbaycan cəmiyyətində vətənpərvərlik hissinin gücləndirilməsinin ən aktual məsələlərdən biri olduğunu deyib. Qeyd edib ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, ümumbəşəri və multikultural dəyərlərə hörmət aşılanması hər zaman prioritet olub.

S.Heydərov inteqrasiya meyillərinin güclənməsi, əxlaqi dəyərlərə müxtəlif yanaşmaların yaranması ilə müşayiət olunan qloballaşma təzahürlərinin getdikcə daha geniş vüsət aldığı indiki şəraitdə ölkəmizin istər siyasi, istər müdafiə, istərsə də təhlükəsizlik baxımından etibarlı əllərdə olduğunu bildirib. Diqqətə çatdırıb ki, hüquq mühafizə və təhlükəsizlik orqanlarının yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanda sabitlik və əmin-amanlıq yüksək səviyyədə təmin edilir. Müharibə şəraitində olan ölkə üçün milli təhlükəsizlik və dini-ideoloji sabitliyin prioritet məsələ olduğunu nəzərə çatdıran sədr müavini DQİDK-nın bu istiqamətdə müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, ölkədəki bütün hərbi hissələrdə maarifləndirici tədbirlərin keçirildiyini deyib. Komitənin sifarişi ilə vətənpərvərlik mövzusunda çəkilən "Şəhadət" sənədli filminin hərbi vətənpərvərliyin təbliği baxımından önəmini vurğulayan natiq filmdəki hərbçilərimizin qəhrəmanlıqları və fədakarlıqlarının gənclərimiz üçün bir nümunə olduğunu deyib.

Sonra məruzə ilə çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, işğal olunmuş ərazilərimizdə dini ibadətgahlar vandalizm aktlarına məruz qalıb. Şuşada, Ağdamda olan məscidlər fəaliyyət göstərmir, dağıdılıb və təhqir olunub. Onun sözlərinə görə, Azərbaycan Silahlı Qüvvələri təkcə bu ölkənin ərazi bütövlüyünü, Azərbaycan xalqını qorumur, həm də bölgədə dini tolerantlığın qarantıdır. Ermənilər işğal altında olan alban kilsələrini qriqoryanlaşdırdığı kimi, bu torpaqlarda olan kilsələri də qriqoryanlaşdırırlar. G.İsmayılov vurğulayıb ki, tolerantlığın mühafizəçisi Azərbaycan Ordusudur. Onlar olmasa, bu torpaqlarda nə İslam, nə tolerantlıq olar.



QMİ-nin sədr müavini Fuad Nurullayev isə qeyd edib ki, bugünkü Azərbaycan gəncliyinin vətənpərvər ruhda tərbiyə olunması olduqca vacib məsələdir və bu sahədə qəbul edilən dövlət proqramları, imzalanan fərman və sərəncamlar gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. F.Nurullayev təkcə müvafiq qurumların deyil, eləcə də dini icmaların gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində müəyyən tədbirlərin keçirdiyini diqqətə çatdırıb.

Müdafiə Nazirliyinin şöbə rəisi Rauf Dəmirov və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinin rəisi Bünyad Qaralov çıxışlarında bildiriblər ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda son illər çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Natiqlər vurğulayıblar ki, Milli Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Silahlı Qüvvələrin Ali Baş Komandanının hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir. Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara sonsuz mübarizə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir. O da qeyd olunub ki, 2016-ci ilin aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərmiş oldu. Vurğulanıb ki, Azərbaycan Ordusu istər silah, istərsə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı baxımından erməni ordusundan qat-qat yüksəkdir.

BBMM-in icraçı direktoru Rəvan Həsənov, Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov təmsil etdikləri qurumların hərbi vətənpərvərliyin gücləndirilməsi sahəsində gördüyü işlərdən danışıblar.

QMİ-nin səlahiyyətli nümayəndəsi Hacı Şahin Həsənli, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisiy Svechnikov, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dini radikalizmə qarşı mübarizədə, o cümlədən milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan hərbi vətənpərvərliyin gücləndirilməsində dini icmaların üzərinə düşən vəzifələr barədə fikirlərini bölüşüblər.

# "DÜNYƏVİ DÖVLƏTDƏ DİN VƏ TƏHSİL"

## XIZIDA

Xızı rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xızı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə iyunun 4-də "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda seminar-treninq keçirilib.

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqi giriş sözü ilə açan Xızı RİH başçısının müavini Jalə Süleymanova mövzunun əhəmiyyətindən danışıb. O, eyni zamanda rayondakı dini durum barədə ətraflı məlumat verib.





Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, müasir dövrdə bir çox dövlətlər dini ekstremizm və terrordan ciddi əziyyət çəkir. G.İsmayılov deyib ki, terror hadisələri səbəbindən dünyanın bəzi regionlarında ictimai sabitlik pozulur, vətəndaş qarşıdurması yaranır, eləcə də tarixi memarlıq abidələri dağıdılır. Sədr müavinin sözlərinə görə, son illər dünyada regional və qlobal müstəvidə baş verən hadisələr onu deməyə əsas verir ki, dinlərdən müasir dövrdə siyasi məqsədlərin və məkrli niyyətlərin həyata keçirilməsində geniş istifadə olunur. Hazırda dünyada, xüsusilə müsəlman ölkələrində sabitliyin pozulmasında din amili vacib rol oynayır və beynəlxalq güclər bundan məharətlə istifadə edirlər.

Bütün səmavi dinlərin, o cümlədən İslamın insanları sülhə, əmin-amanlığa, elm öyrənməyə səslədiyini vurğulayan G.İsmayılov deyib ki, istər Quranda, istərsə də başqa mənbələrdə bəşər övladına elmin dəyəri və insan həyatındakı əvəzedilməz rolu barədə çağırışlar edilib, elm öyrənənlərə, alimlərə hörmətlə yanaşılıb, cəhalət və cahillər isə kəskin şəkildə məzəmmət olunub.

Tədbirin sonunda DQİDK-nın sədr müavini Gündüz İsmayılov iştirakçıları maraqlandıran sualları cavablandırıb.

## GƏNCƏDƏ

Gəncə şəhərində DQİDK və Kəlbəcər RİH-in birgə təşkilatçılığı ilə iyunun 12-13-də "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqi giriş sözü ilə açan RİH Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Heydər Bəylərov mövzunun əhəmiyyətindən danışıb. 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən rayonun işğal olunduğunu qeyd edən natiq bildirib ki, işğala qədər rayon ərazisində 30-dan artıq məscid, kilsə, 6 ziyarətgah mövcud olub. Təəssüf ki, ermənilər işğal etdikləri ərazilərdəki, o cümlədən Kəlbəcərdəki qədim Azərbaycan abidələrini məhv edir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini radikalizmin yaranma səbəbləri və onunla mübarizə metodlarından danışıb. Sədr müavini deyib ki, dini inanc sistemi əxlaqi və mənəvi dəyərlər çərçivəsindən çıxıb, siyasi bir ideologiyaya çevriləndə, eləcə də geniş bir kütlə tərəfindən dəstəklənən siyasi təşkilatlanma şəklində təzahur edəndə dini radikalizm meydana gəlir. Onun sözlərinə görə, din və siyasətin birləşməsi ilk növbədə dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsinə gətirib çıxarır: "Dinin ilkin hədəf və məqsədi insanların ruhi saflığı və mənəvi tərbiyə vasitəsi olduğuna görə, onu siyasətə alət etməyə yol vermək olmaz. Buna görə də, liberal demokratik siyasi quruluşlar inanc və etiqad azadlıqlarını qanunlarla təminat altına alır, digər tərəfdən isə dini siyasətdən və dövlətdən ayırmaqdadır".

Sədr müavini deyib ki, dövlət dindən ayrı olsa da, dindar dövlətdən ayrı deyil. Hər bir dindar dövlətimizin qayğısı ilə əhatə olunub.

Bildirilib ki, bu gün Azərbaycanda dövlət-din münasibətləri normal məcrada inkişaf edir.

Seminar-treninq iyunun 13-də öz işini müzakirələrlə davam etdirib.

## GORANBOYDA

Goranboy rayonunda DQİDK və Xocalı RİH-in birgə təşkilatçılığı ilə iyunun 13-14-də "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-treninqi giriş sözü ilə açan RİH başçısının müavini Lamiə Qarayeva respublikamızdakı dini durumla bağlı sabitliyin qorunub saxlanılması istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib. O bildirib ki, ölkə başçısı İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov deyib ki, hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə insanlara çatdırılmırsa, xurafatın yayılması qaçılmazdır. Yad dini ideologiyaların təsiri altına düşənlərin dini bilgilərinin zəif olması ehtimalının böyük olduğunu deyən G.İsmayılov bildirib ki, bu baxımdan gənclərə dinlər haqqında ümumi məlumatların verilməsi, müqəddəs kitabların mahiyyətinin izah edilməsi olduqca vacibdir. Sədr müavini dini-mənəvi biliklərin düzgün aşılanması və mahiyyətinin dərk edilməsi mövzusunun gənclər üçün xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

DQİDK-nın sədr müavini vurğulayıb ki, dinimizin əsas məqsədlərində biri də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır.



# "MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR" MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB



Şəki şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda keçirilən regional konfrans iyunun 24-də "Dini radikalizmlə mübarizə və maarifləndirimə" mövzusunda panel iclasla öz işinə başlayıb.

Şəki şəhərində baş tutan seminar-treninqdə DQİDK və ŞİH-in rəhbər şəxsləri, məktəb direktorları və təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, məktəb psixoloqları və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ŞİH başçısının müavini Zərinə Cavadova Şəki şəhərindəki dini durum barədə məlumat verib, dövlətin dinə, dindarlara göstərdiyi qayğıdan, müxtəlif konfessiya nümayəndələri üçün yaradılan bərabər şəraitdən danışıb.

DQİD-nın sədr müavini Gündüz İsmayılov insanlara dini bilgilərin verilməsi, onların bu mövzu ilə bağlı məlumatlandırılmasının vacibliyinə toxunub. O qeyd edib ki, dini maarifləndirmə işi cəmiyyətin bütün təbəqələrini və fərdlərini əhatə etməklə intensiv şəkildə təşkil edilməlidir. Dini maarifləndirmə işinin təkcə təhsil müəssisələrində deyil, bütün istiqamətlərdə aparılmasının vacibliyini vurğulayan sədr müavini bununla insanlarda dini biliklər sahəsində yaranan boşluqların doldurulması, dini radikalizm meyllərinin zəiflədilməsi və cəmiyyətdə tolerantlığın artırılmasının hədəfləndiyini bildirib.

G.İsmayılov vurğulayıb ki, xalqımızın tarixən dini radikalizmdən uzaq olmasına baxmayaraq, müstəqilliyimizi bərpa etdikdən sonra dini durumda üzləşdiyimiz problemlərdən biri də radikalizm olub. Sədr müavini deyib ki, elm, təhsil olmayanda din xurafata çevrilir. Onun sözlərinə görə, əgər hansısa cəmiyyətdə təhsil və dini biliklər paralel şəkildə insanlara çatdırılmırsa, xurafatın yayılması qaçılmaz olacaq. Yad dini ideologiyaların təsiri altına düşənlərin dini bilgilərinin zəif olması ehtimalı böyükdür. Bu baxımdan gənclərə dinlər haqqında ümumi məlumatların verilməsi, müqəddəs kitabların mahiyyətinin izah edilməsi olduqca vacibdir.

Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabər İsmayılova gənclərin radikal qruplaşmaların yalanlarına, təxribatçılıq əməllərinə uymaması və bütün bunlarla mübarizədə gənclər arasında maarifləndirmə tədbirlərinin mütəmadi davam etdirilməsinin vacibliyini qeyd edib. O bu istiqamətdə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "DİNİ TƏHSİL, DİNİ TƏRBİYƏ VƏ DÜNYƏVİLİK"

İyunun 28-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda konfrans keçirilib.

Tədbirdə Bakı şəhərinin Xəzər və Pirallahı rayonlarının ümumtəhsil məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimləri iştirak ediblər.




Konfransı giriş sözü ilə açan Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, təmsil etdiyi qurum təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması istiqamətində Təhsil Nazirliyi, o cümlədən Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə fəaliyyət göstərir. Məktəblilərin dinlə bağlı məlumatları etibarlı mənbədən almalarının vacibliyindən danışan G.İsmayılov qeyd edib ki, belə olduğu təqdirdə yeniyetmə və gənclərimiz zərərli dini ideologiyanın təsirinə düşməzlər. Sədr müavini çıxışında gənclərimizin milli-mənəvi dəyərlərimizin əsasında tərbiyə olunmasının vacibliyinə diqqət çəkib və bu sahədə müəllimlərin də üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Dövlət Komitəsinin sədr müavini, eyni zamanda cəmiyyətimiz üçün real təhlükə olan dini fanatizm, dini radikalizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə məlumat verib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov isə çıxışında milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə sintez edilməsinin əhəmiyyətinə toxunub. H.Əsgərov vurğulayıb ki, dini dəyərlər mənəvi dəyərlər sistemində xüsusi yer tutur. BŞTİ-nin müdir müavini, həmçinin DQİDK-nın dini maarifləndirmə sahəsindəki fəaliyyətini yüksək qiymətləndirib.

Konfransda təhsil işçilərini maraqlandıran suallar cavablandırılıb.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. DQİDK-nın təşkilatçılığı, eyni zamanda Dövlət Komitəsi və müvafiq dövlət qurumları arasında razılaşdırılmış Tədbirlər Planlarına uyğun olaraq həyata keçirilən tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanlarının nümayəndələri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*



**1 iyun** - DQİDK və Müdafiə Nazirliyinin 2019-cu il üçün birgə fəaliyyət planına əsasən Qaradağ rayonu Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Ağstafa Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində Ağstafa şəhər 2 saylı tam orta məktəbində "Azərbaycanda insan hüquqları" mövzusunda;

**3 iyun** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Cəlilabad RİH-in birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində Cəlilabad şəhər 2 saylı tam orta məktəbində; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və Masallı Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı şəhəri Rafiq Əlihəsənov adına 1 saylı tam orta məktəbində "Dini radikalizm və narkomaniya ilə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Binəqədi rayonu 102 nömrəli tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizin təbliğində İslamın rolu" mövzusunda;

**4 iyun** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Kürdəmir rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində; DQİDK və Bakı Şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Xətai rayonu 245 saylı tam orta məktəbdə "Radikalizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Bakı şöbəsi, Binəqədi RİH və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində rayonun 284 saylı tam orta məktəbində;

**7 iyun** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Peşə Liseyinin birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində;

**11 iyun** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə M.F.Axundov adına Yardımlı şəhər 1 saylı tam orta məktəbində "Gənclər arasında dini radikalizm və narkomaniyaya qarşı mübarizə" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay RİH və Göyçay rayonu Heydər Əliyev mərkəzinin birgə təşkilatçılığı ilə;

**12 iyun** – DQİDK və Mədəniyyət Nazirliyinin "Azərbaycan xalqının mənəvi dəyərlərinin təbliği və dini radikalizmə qarşı mübarizəyə dair 2019-cu il üçün birgə Tədbirlər Planı"na uyğun olaraq Zaqatala Nizami Gəncəvi adına Mərkəzi rayon kitabxanasında "Tolerantlıq-Azərbaycan xalqının mənəvi sərvətidir" mövzusunda; DQİDK, Nizami RİH və Nizami Rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə "İnsan Hüquqları Aylığı" çərçivəsində Nizami rayonu Kamil Əyyubov adına 12 saylı tam orta məktəbdə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in birgə təşkilatçılığı ilə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində "Müasir zamanda milli-mənəvi dəyərlərin yaşadılması uğurlu gələcəyin zəmanətidir" mövzusunda;

**13 iyun** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Balakən rayonu Heydər Əliyev mərkəzində "15 İyun - Milli Qurtuluş Günü" ilə əlaqədar;

**14 iyun** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar "Xalqın xilaskarı" mövzusunda; DQİDK, Suraxanı RİH və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə Bakı şəhəri Suraxanı rayonu Bülbülə qəsəbəsində "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda;

**19 iyun** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Mədəniyyət Nazirliyinin Xaçmaz Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Azərbaycan xalqının birgəyaşayış mədəniyyəti və multikulturalizm təcrübəsi" mövzusunda;

**20 iyun** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər nümayəndəliyinin birgə təşkilatçılığı ilə Yevlax şəhər Heydər Əliyev Mərkəzində "Qloballaşma dövründə xalqımızın mədəni və mənəvi dəyərlərinin qorunması" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzində "Gənclərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda;

**21 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və Beyləqan rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini radikalizmə və ekstremizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**27 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə Sabirabad rayon Mədəniyyət Mərkəzində "Dini radikalizmlə mübarizədə mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə milli-mənəvi dəyərlərin rolu" mövzusunda;

**28 iyun** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimi-



zi qoruyaq və təbliğ edək" mövzusunda baş tutub.

Tədbirlərdə xalqımızın əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması istiqamətində görülən işlər barədə məlumat verilib. Uğurlu dövlət-din siyasətindən danışan natiqlər milli-mənəvi irsin qorunub yaşadılması, maddi mədəniyyət abidələrinin bərpa və inşa edilməsi, dini-əxlaqi dəyərlərimizin mühafizə olunması kimi tədbirlərin dövlət siyasəti səviyyəsinə yüksəldilməsinin əhəmiyyətini qeyd ediblər.

Vurğulanıb ki, Azərbaycan xalqının əsrlərlə qoruyub yaşatdığı zəngin milli-mənəvi dəyərlər İslam dəyərləri ilə vəhdət təşkil edir. Həmçinin natiqlər dini radikalizmin mahiyyəti, yaranma səbəbləri, qeyri-ənənəvi təriqətlərin və dini cərəyanların yaratdığı fəsadlar haqqında geniş mühazirə ilə çıxış ediblər. Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin və maarifləndirmənin oynadığı rola toxunublar.

"İnsan Hüquqları Aylığı" çərçivəsində keçirilən tədbirlərdə bildirilib ki, əsas məqsəd insan hüquqlarını və hüquq bərabərliyi üzərində qurulmuş multikulturalizm dəyərlərini ölkəmizin vətəndaşları arasında təbliğ etmək, eləcə də cəmiyyətdə insan ləyaqətinə hörməti, insan hüquqlarına əməl olunmasının zəruruliyini önə çəkməklə gənclərdə humanizm keyfiyyətlərini formalaşdırmaqdan ibarətdir.

Tədbirlərdə "Şəhadət" sənədli filmi nümayiş etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

CƏMİYYƏT və DİN

№ 06 (335) / İYUL 2019-cu il

# 22 AVQUST "DİNİ MOTİVLİ ZORAKILIQ QURBANLARINI ÜMUMDÜNYA ANIM GÜNÜ" KİMİ QEYD OLUNACAQ

BMT Baş Assambleyasının plenar iclasında bu ildən 22 avqustun hər il "Dini motivli zorakılıq qurbanlarını ümumdünya anım günü" kimi qeyd olunması barədə qərar qəbul edilib.

Assambleyanın 73-cü sessiyasının 85-ci plenar iclasında Təşkilata üzv dövlətlərin, bir çox regional, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətlərinin səlahiyyətli nümayəndələri iştirak ediblər. Belə bir günün qeyd olunması təklifi Baş Assambleyanın qətnaməsinin layihəsini hazırlayan 9 ölkənin adından Polşanın Xarici işlər naziri Yaçek Çaputoviç tərəfindən irəli sürülüb.

Baş Assambleyanın qətnaməsində dini inanc zəminində şəxsiyyətə, əmlaka, mədəniyyət mərkəzlərinə, təhsil ocaqlarına, müqəddəs yerlərə, ibadətxanalara qarşı göstərilən hər cür dözümsüzlük təzahürü, həmçinin ibadət yerlərində insanlara hücum, beynəlxalq normalara zidd inanclara pərəstiş və sitayiş halları şiddətlə qınanılır. Qətnamə, eyni zamanda motiv və səbəblərindən asılı olmayaraq hər hansı şəxs, yaxud təşkilat tərəfindən həyata keçirilən və terrora yol açan hər cür terrorizm və zorakı ekstremizm davranışlarının qətiyyətlə pislənməsini təsdiqləyir.

BMT əmindir ki, "Dini motivli zorakılıq qurbanlarını ümumdünya anım günü" üzv ölkələrin, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətlərinin zorakılıq qurbanlarını xatırlamasına və bu faciədən xilas olan insanlara kömək etmək üçün ortaq bir platforma yaratmasına xidmət göstərəcəkdir.

# PAPA KATOLİK TƏDQİQATÇILARDAN İSLAM HAQQINDA MƏLUMATLI OLMAĞI TƏLƏB EDİB



Roma Papası I Fransisk katolik ilahiyyat tədqiqatlarında daha çox yəhudi və İslam elementlərinə yer verilməsini tələb edib. Bu yaxınlarda o, Neapolda Cənubi İtaliya Papa İlahiyyat Universitetinin konfransındakı çıxışında bildirib ki, tələbələrə digər dinlərlə dialoq prinsipləri aşılanmalıdır. Onun sözlərinə görə, xüsusilə müsəlmanlarla sülh içərisində birgəyaşayış üçün tərəfdaş kimi yanaşılmalıdır.

I Fransisk katolik məktəblərində dərslik proqramlarına ərəb və ibrani dili və mədəniyyətinə dair dərslər salınmasına çağırıb. O vurğulayıb ki, Aralıq dənizi regionu təbii mühitinə görə "görüşlər, dialoq və qarşılıqlı mədəni nüfuza açıqdır". Gələcək ilahiyyatçılar böyük mərhəmət sahibi insanlar olmalı, sosial çətinlikləri və ədalətsizlikləri dərk etməyi bacarmalıdırlar.

Qeyd edək ki, konfransın əsas mövzusu 2018-ci ilin yanvarında nəşr olunmuş "Veritatis gaudium" bülleteni əsasında katolik universitetləri və fakültələrində aparılan islahatlardan sonra Aralıq dənizi teologiyası idi.

# AVROPANIN 10 MEMARLIQ MÖCÜZƏSİNDƏN BİRİ

"Travel" portalı Avropanın 10 memarlıq möcüzəsinin siyahısını tərtib edib. Siyahıda birinci yeri hazırda Roma Katolik Kilsəsinin yerləşdiyi Meskita və ya Kordova Cümə Məscidi tutur.

VIII əsrdə inşa edilmiş bu məscid Əməvilər dövrünün görkəmli abidələrindən biridir.

VIII əsrdə Əməvilər xilafəti İspaniyanı işğal edib, İslamın "Qızıl dövründə" isə orada gözəl məscidlər və saraylar tikilib. Orta əsrlərdə Meskita dünyada ikinci ən böyük məscid olub.

Rekonkista hərəkatından sonra Kordova məscidi xristian kilsəsinə çevrilib və hazırda Vatikan tərəfindən idarə edilir. Mavritaniya memarlığının heyrətamiz gözəlliyə malik olan bu nümunəsi hər il minlərlə turisti cəlb edir.

## Yadigar söz

**Deni Didro**

(fransız yazıçısı, filosof-maarifçi)

***Yeganə dostum kitablarım, yeganə düşmənim isə cahil dostlarımdır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları (iyul - 2019)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:27 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:53 |
| 2 | 03:28 | 05:14 | 12:44 | 17:57 | 20:31 | 21:52 |
| 3 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 4 | 03:29 | 05:15 | 12:45 | 17:57 | 20:31 | 21:52 |
| 5 | 03:30 | 05:16 | 12:45 | 17:57 | 20:31 | 21:51 |
| 6 | 03:31 | 05:16 | 12:45 | 17:57 | 20:30 | 21:51 |
| 7 | 03:32 | 05:17 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 8 | 03:33 | 05:18 | 12:45 | 17:57 | 20:30 | 21:50 |
| 9 | 03:34 | 05:18 | 12:46 | 17:57 | 20:29 | 21:49 |
| 10 | 03:35 | 05:19 | 12:46 | 17:57 | 20:29 | 21:48 |
| 11 | 03:36 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:48 |
| 12 | 03:37 | 05:20 | 12:46 | 17:57 | 20:28 | 21:47 |
| 13 | 03:38 | 05:21 | 12:46 | 17:56 | 20:27 | 21:46 |
| 14 | 03:39 | 05:22 | 12:46 | 17:56 | 20:27 | 21:45 |
| 15 | 03:40 | 05:23 | 12:46 | 17:56 | 20:26 | 21:44 |
| 16 | 03:41 | 05:23 | 12:47 | 17:56 | 20:26 | 21:43 |
| 17 | 03:42 | 05:24 | 12:47 | 17:55 | 20:25 | 21:42 |
| 18 | 03:44 | 05:25 | 12:47 | 17:55 | 20:24 | 21:41 |
| 19 | 03:45 | 05:26 | 12:47 | 17:55 | 20:23 | 21:40 |
| 20 | 03:46 | 05:27 | 12:47 | 17:54 | 20:23 | 21:39 |
| 21 | 03:47 | 05:27 | 12:47 | 17:54 | 20:22 | 21:38 |
| 22 | 03:48 | 05:28 | 12:47 | 17:54 | 20:21 | 21:37 |
| 23 | 03:50 | 05:29 | 12:47 | 17:53 | 20:20 | 21:36 |
| 24 | 03:51 | 05:30 | 12:47 | 17:53 | 20:19 | 21:35 |
| 25 | 03:52 | 05:31 | 12:47 | 17:52 | 20:19 | 21:33 |
| 26 | 03:54 | 05:32 | 12:47 | 17:52 | 20:18 | 21:32 |
| 27 | 03:55 | 05:33 | 12:47 | 17:51 | 20:17 | 21:31 |
| 28 | 03:56 | 05:34 | 12:47 | 17:51 | 20:16 | 21:30 |
| 29 | 03:58 | 05:35 | 12:47 | 17:50 | 20:15 | 21:28 |
| 30 | 03:59 | 05:35 | 12:47 | 17:50 | 20:14 | 21:27 |
| 31 | 04:00 | 05:36 | 12:47 | 17:49 | 20:12 | 21:25 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# ATEİST VƏ AQNOSTİKLƏRİN ƏKSƏRİYYƏTİ FÖVQƏLTƏBİİ GÜCLƏRƏ İNANIRLAR

Birləşmiş Ştatlar, Böyük Britaniya, Braziliya, Çin, Danimarka və Yaponiyada aparılan sosial araşdırma nəticəsində məlum olub ki, ateist və aqnostiklərin əksəriyyəti fövqəltəbii qüvvələrə inanırlar və onlar arasında fövqəltəbii fenomenləri inkar edənlərin nisbəti 50% -dən çox deyil.

Böyük Britaniyanın Kent Universiteti tərəfindən maliyyələşdirilən "İnanc köklərini aydınlaşdırmaq" layihəsi çərçivəsində həyata keçirilən tədqiqat zamanı aparılan çoxsaylı sorğularda minlərlə ateist və aqnostik iştirak edib. Alimlər müəyyənləşdiriblər ki, hətta ən qatı ateistlər belə öz fitrətlərində anadangəlmə mövcud olan fövqəltəbiiyə inamı tamamilə tərk edə bilmirlər. Sonuncu tədqiqat təsdiqləyib ki, hansısa dindən tamamilə uzaqlaşdığını elan edənlər bu və ya digər dərəcədə dərk edilməyən ali qüvvəyə inanclarını saxlayırlar.



Xatırladaq ki, aqnostiklərdən fərqli olaraq ateistlər inanırlar ki, heç bir tanrı yoxdur. Aqnostiklər isə hesab edirlər ki, ağlı və duyğuları vasitəsilə insanın obyektiv reallığı dərk etməsi mümkün olmadığından tanrının inkarı və ya sübutu da qeyri-mümkündür. İngilis təsnifatına əsasən, təbiəti bütün mövcudiyyətin vahid və universal mənbəyi və izahı olaraq görən, başqa sözlə, fövqəltəbii qüvvələri inkar edən ateist və aqnostiklər naturalist hesab olunurlar. Hesabatda hər üç qrup "inancsızlara" aid edilir. Bununla yanaşı, qeyd olunur ki, tanrını inkar bəzi fövqəltəbii qüvvələrin inkarı demək deyil.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894